# ANCA sülh yolunda əngəldir

**ABŞ-dəki erməni diasporu ölkəmizlə bağlı növbəti təxribata hazırlaşır.**



Sentyabrın 19-da ermənipərəst konqresmenlər – Respublikaçılar Partiyasının üzvü Kristofer Smit və Demokratlar Partiyasının üzvü Ceyms Makqovernin həmsədrliyi ilə Nümayəndələr Palatasının Tom Lantos adına İnsan Hüquqları Komissiyasında Azərbaycanla bağlı dinləmələr keçiriləcək. Gözlənildiyi kimi, tədbir Amerika Erməni Milli Komitəsinin (ANCA) təşkilatçılığı ilə baş tutacaq.

*(ardı 4-cü səhifədə)*


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 204 (30608) 19 sentyabr 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# 19–20 sentyabr antiterror əməliyyatı Qarabağda erməni separatizminə son qoydu

## Xankəndi xuntasının iflası ilə Azərbaycanın suverenliyi bütün ölkədə bərpa edildi



**2020-ci ilin sentyabr ayının 27-də başlanan Vətən müharibəsinin böyük Zəfərlə başa çatması nəticəsində Azərbaycan ərazilərinin 30 ilə yaxın davam edən işğalına son qoyuldu. Azərbaycan xalqının, dövlətinin və ordusunun dəmir yumruğa çevrilmiş birliyi nəticəsində Ermənistanın işğalçı ordusu məhv edildi. Düşmənin canlı qüvvəsinə və texniki təchizatına ağır zərbə vuruldu, işğalçıya və onun himayədarlarına layiq olduqları yer göstərildi.**

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 gün davan edən Vətən müharibəsinin gedişində Azərbaycan Respublikasının Silahlı Qüvvələri işğal altında olan 300-ə yaxın məntəqəni azad etdi. Ermənistanın hərbi-siyasi rəhbərliyi işğal altında qalmış Ağdam, Kəlbəcər və Laçın rayonlarını isə hərbi əməliyyatlar aparılmadan azad etməyi öz öhdəsinə götürməli oldu. Amma Ermənistan hərbi-siyasi rəhbərliyinin Azərbaycan qarşısında öz üzərinə götürdüyü öhdəlik yalnız bundan ibarət deyildi. Üçtərəfli Bəyanata əsasən, Ermənistan tərəfinin icra etməli olduğu öhdəliklərdən biri də keçmiş Dağlıq Qarabağ ərazisində qalmış erməni hərbi qüvvələrinin tərksilah və ləğv edilməsi idi.

Lakin Ermənistanın hərbi-siyasi rəhbərliyi üzərinə götürdüyü bu öhdəliyi yerinə yetirmədi. Nəticədə Rusiyanın müvəqqəti sülhyaratma kontingentinin dayandığı ərazilərdə erməni hərbi qüvvələrinin silahsızlaşdırılması və bundan sonra da Qarabağın dağlıq hissəsində yaşayan erməni sakinlərin Azərbaycanın daxili həyatına inteqrasiya edilməsi aparılmadı. Əksinə, Ermənistanda revanşist qüvvələr baş qaldırdı və beynəlxalq himayədarları da onları itirilmiş olan ərazilərin geriqaytarılması üçün Azərbaycana qarşı təxribatçı əməllərə təhrik etməyə başladılar.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan qlobal enerji təşəbbüslərini fəal dəstəkləyir



**Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin baş direktoru Françesko La Kameranın sözlərinə görə, qlobal miqyasda bərpaolunan enerji mənbələrinin 40 faizinin reallaşdırılmasına nail olunub.**

Lakin buna baxmayaraq hazırda qlobal istiləşmənin 1,5 selsi səviyyəsindən aşağı saxlanılması üçün transmissiyanın həcminin 3 giqavatdan 2030-cu ildə 10 giqavatadək artırılması zərurəti ilə üzləşilib.

Qarşıda duran bu vəzifəni gerçəkləşdirmək üçün genişhəcmli investisiyanın tələb edildiyini bildirən baş direktor bunun üçün, ilk növbədə, sərmayələrin daha ədalətli şəkildə ölkələrə yönəldilməsinin dövlət sektorunun müdaxiləsindən asılı olduğunu deyib.

Françesko La Kameran, eyni zamanda, bərpaolunan enerji mənbələrinin reallaşdırılması məqsədilə inkişaf etməkdə olan ölkələrə daha çox vəsait yönəltmək üçün kollektiv səylər tələb edildiyini, yeni enerji sisteminin inkişafını sürətləndirmək məqsədilə lazımi fiziki infrastrukturun qurulmasının vacibliyini vurğulayıb.

Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin baş direktoru daha sonra deyib: “Bir sıra ölkələrin bu sahədəki fəaliyyətinə diqqət yetirəndə fərqli mənzərə nəzərə çarpır. Məsələn, Almaniya hazırda dünyada bərpaolunan enerji mənbələrinin inkişafında və tətbiqində haqlı olaraq lider sayılır. Bu dövlət hərtərəfli düşünülmüş enerji siyasəti və sözügedən sektorun inkişafının onilliklər boyu dəstəklənməsi sayəsində bərpaolunan enerjinin təbliğində, nəzəri texnologiyaların iqtisadiyyatda tətbiqində mühüm rol oynayır.

*(ardı 9-cu səhifədə)*

# Ölkəmiz elektron hökumətə keçiddə öncül mövqedədir




Səhifə ⇨ 8

# Xatirələrdən boy göstərən korifey



Səhifə ⇨ 10

## “Peycer partlaması” “Hizbullah”ı iflic edəcəkmi?!



**Çərşənbə axşamı Livanda və Suriyada “Hizbullah” qruplaşmasının 3 minə yaxın üzvü və çox sayda digər şəxslər ağır yaralanıb.**

Partlayış nəticəsində həlak olanlar da var. Mütəxəssislər son hadisənin Yaxın Şərq regionunda onsuz da ağır vəziyyəti daha da gərginləşdirəcəyindən ehtiyatlanırlar.

*(ardı 11-ci səhifədə)*

# İran–Rusiya gərginliyi

## *Yaxud Tehranın “Zəngəzur dəhlizi” sancısı*

**Azərbaycanın “Zəngəzur dəhlizi” təşəbbüsü, Ermənistanın öhdəliklərini yerinə yetirməkdən boyun qaçırması – “Dünyanın kəsişməsi” avantürası, Rusiyanın mövqeyi, İranın reaksiyası... Əminliklə deyə bilərik ki, bu mövzular son vaxtlar Cənubi Qafqazın siyasi gündəmini daha çox məşğul edib və etməkdədir.**




Hər şey Tehranın Ermənistanın ərazi bütövlüyü və suverenliyi məsələsində ölkənin sərhədlərinin dəyişməzliyini nəzərdə tutan “qırmızı xətt” məntiqini işə salmasından başladı, – desək, yəqin ki, yanılmarıq. Daha doğrusu, İranın üzərindən, az qala, bir il keçdikdən sonra yenidən köhnə məntiqə qayıtmasından sonra. Əlbəttə, həssaslığı artıran bir məqam da oldu ki, onu diqqətə çatdıracağıq. Hələlik isə...

Bir çox siyasi ekspertlər Azərbaycan–İran, İran-Azərbaycan münasibətlərində 2023-cü ilin əvvəlindən başlayaraq, təxminən, doqquz ay davam etmiş gərginlikdən hərbi qarşıdurmanın doğacağını gözləsələr də, sonradan vəziyyət tədricən yumşalan xətt aldı. 2024-cü il mayın 19-da isə gərginlik tam aradan qalxdı. Həmin gün Bakı və Tehran arasında görünməmiş səmimiyyət jestlərinə şahidlik etdik. Azərbaycan Prezidenti İlham Əliyevlə İranın sabiq dövlət başçısı Seyid İbrahim Rəisinin hər iki ölkənin dövlət sərhədindəki görüşündə dostluq ənənələrinin yüksək əməkdaşlıq üçün prioritet seçildiyi dolğunluğu ilə vurğulandı. Tarixi anlar yaşandı.

*(ardı 4-cü səhifədə)*

# “Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli 4013 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli 4013 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 1057 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. üçüncü–doqquzuncu abzaslar müvafiq olaraq dördüncü–onuncu abzaslar hesab edilsin;

1.2. aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

“20 sentyabr – Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü”.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikası Prezidentinin aidiyyəti xüsusi nümayəndəlikləri ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 18 sentyabr 2024-cü il**

# Heydər Əliyev Fondu “Zamin” Beynəlxalq İctimai Fondu ilə memorandum imzalayıb



**Heydər Əliyev Fondu və “Zamin” Beynəlxalq İctimai Fondunun nümayəndə heyəti arasında görüş keçirilib. Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və “Zamin” Beynəlxalq İctimai Fondunun icraçı orqanının rəhbəri Tamilla Əliyeva birgə əməkdaşlıq və həyata keçiriləcək layihələr barədə müzakirə aparıblar.**

Görüşdə Azərbaycan ilə Özbəkistan arasında qarşılıqlı münasibətlər, dövlət səviyyəsində yüksək səviyyəli əlaqələrə hər iki ölkənin qeyri-hökumət təşkilatı kimi Heydər Əliyev Fondu və “Zamin” Fondunun verəcəyi töhfə diqqət mərkəzində olub.

Həmçinin təhsil, səhiyyə və mədəniyyət sahəsində gələcək birgə fəaliyyət nəzərdən keçirilib, iki ölkə gənclərinin təcrübə mübadilələri, qarşılıqlı səfərləri müzakirə olunub.

Azərbaycanın bu ilin noyabr ayında ev sahibliyi edəcəyi COP29 çərçivəsində “Zamin” Fondu ilə əməkdaşlıq da diqqət mərkəzində olub.

Görüş zamanı Heydər Əliyev Fondu ilə “Zamin” Beynəlxalq İctimai Fondu arasında gələcək əməkdaşlığa dair memorandum imzalanıb.

Qeyd edək ki, “Zamin” Fondu Özbəkistanın dayanıqlı inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə dəstək göstərilməsi, ətraf mühit sahələrində və sosial sahədə layihələr həyata keçirir.

# ABŞ diplomatları XİN-də

**Sentyabrın 18-də Xarici İşlər naziri Ceyhun Bayramov ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Coşua Hakın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Görüşdə Azərbaycan və ABŞ arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, habelə postmünaqişə dövründə regional vəziyyət, Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesinin perspektivləri müzakirə olunub.

Azərbaycanın cari ildə ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına hazırlıqlar çərçivəsində Azərbaycan–ABŞ əməkdaşlığı yüksək qiymətləndirilib.

İkitərəfli münasibətlərdə müsbət dinamikanın yaradılması, əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsi istiqamətində səylərə baxmayaraq, bəzi ABŞ rəsmilərinin qərəzli fikirlərinin ikitərəfli münasibətlərə mənfi təsir etdiyi diqqətə çatdırılıb. Sentyabrın 16-da Ermənistanın ABŞ-dakı səfirliyində bu ölkənin Beynəlxalq İnkişaf Agentliyinin administrator müavini İzobel Koulmanın Azərbaycana qarşı açıqlamalarına istinad edilərək, bu kimi çıxışların Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmətsizlik olduğu, ölkəmizin suveren ərazilərində Ermənistan silahlı qüvvələrinin qanunsuz mövcudluğuna son qoymuş antiterror tədbirləri ilə bağlı faktları təhrif etmək məqsədi daşıdığı vurğulanıb. Görüşdə bölgədəki mina təhdidləri qeyd edilib, bu istiqamətdə mümkün əməkdaşlıq nəzərdən keçirilib. Sülh sazişi üzrə danışıqlarda əhəmiyyətli irəliləyişə baxmayaraq, yekun sülh sazişinin imzalanmasına ən ciddi maneənin başda Ermənistan Konstitusiyası olmaqla, bu ölkənin bir sıra hüquqi və siyasi sənədlərində Azərbaycana qarşı ərazi iddialarının davam etməsi olduğu vurğulanıb. Bundan əlavə, Ermənistanın hərbiləşdirilməsi siyasətinin bölgədə sülh və sabitliyə xidmət etmədiyi bildirilib.

**XQ**

# Azərbaycan və Özbəkistan konsulluq məsləhətləşməsi



**Sentyabrın 18-də Özbəkistan Respublikasının Daşkənd şəhərində Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Xarici İşlər nazirlikləri arasında növbəti konsulluq məsləhətləşmələri keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Emil Səfərov, Özbəkistan nümayəndə heyətinə isə bu ölkənin Xarici İşlər Nazirliyinin Konsulluq-hüquq idarəsinin rəisi Bobur Azizov rəhbərlik ediblər.

Görüşə, həmçinin Azərbaycan tərəfindən Dövlət Miqrasiya Xidmətinin, Özbəkistan tərəfindən isə Daxili İşlər Nazirliyinin, Məşğulluq və Əmək Məsələləri üzrə Nazirliyinin, Xarici Əmək Miqrasiyası Agentliyinin rəsmiləri qatılıblar.

Konsulluq məsləhətləşmələri zamanı Azərbaycanın müttəfiqi olan Özbəkistanla konsulluq sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, o cümlədən, sahə üzrə yeni ikitərəfli sənədlərin imzalanması imkanları barədə fikir mübadiləsi aparılıb.

Eyni zamanda, danışıqlar zamanı iki ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qorunması, miqrasiya və ədliyyə sahələrində əlaqələrin inkişaf etdirilməsi məsələləri müzakirə edilib.

**XQ**

## ABŞ Ermənistana hərbi və digər yardımları niyə artırır?

**“ABŞ Ermənistanın özünün seçdiyi münasibətləri davam etdirməklə bağlı suveren hüququna hörmət edir”.**

Bu barədə ABŞ Dövlət Departamentindən AZƏRTAC-ın ABŞ müxbirinin regionda Ermənistanın hərbiləşdirilməsi siyasətinin, keçmiş ATƏT-in Minsk qrupu ölkələrinin Ermənistanı dəstəkləməyə davam etməsinin və ABŞ və Avropa İttifaqının artan hərbi dəstəyinin Azərbaycanla Ermənistan arasında davam edən sülh sazişi danışıqlarına təsiri, o cümlədən Ermənistanla Rusiya arasında artan ticarət və hərbi əlaqələrin daha geniş regionda stabilliyə təhdid təşkil etməsi ilə bağlı sorğusuna cavabında deyilib. ABŞ-nin Ermənistana yardımlarını artırmasına gəldikdə bildirilib ki, ABŞ-nin bu ölkəyə yardımı onun demokratik və iqtisadi inkişafını artırmaq, regional iqtisadiyyata inteqrasiyanı gücləndirmək, ticarəti şaxələndirmək və mənfi təsirlər qarşısında dayanıqlılığını gücləndirməyə xidmət edir.

Qeyd olunub ki, Birləşmiş Ştatlar Azərbaycanın və Ermənistanın regionda təhlükəsizliyi və tərəqqini təmin edəcəyinə inanır, davamlı və layiqli sülh sazişinə nail olmaq səylərini dəstəkləyir: “Tərəflər razılaşmanın yekunlaşdırılması istiqamətində əhəmiyyətli irəliləyiş əldə ediblər və ABŞ bu prosesi istənilən şəkildə dəstəkləməyə sadiqdir”.

# Sülh müqaviləsi hökumətlə deyil, xalqla imzalanmalıdır

**Ermənistan tərəfi əgər sülh müqaviləsinin irəli aparılmasında ciddidirsə və bu məsələdə həqiqətən maraqlıdırsa, təkliflərə 70 gün ərzində cavab verməsi özlüyündə müəyyən suallar doğurur. Yəni sülh müqaviləsinin əksər bəndləri üzrə tərəflər arasında müəyyən razılıqlar vardır, amma həl də aparılmalı olan işlər göz qarşısındadır. Bu, ilk növbədə, Ermənistanın Konstitusiyası ilə əlaqədar olan məsələlərdir.**



Bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə müsahibəsində deyib. Prezidentin köməkçisi açıqlamasının davamında vurğulayıb: “Prezident İlham Əliyev də dəfələrlə vurğulayıb ki, Ermənistanın Konstitusiyasında və digər normativ hüquqi sənədlərində Azərbaycana qarşı ərazi iddialarına tam şəkildə son qoyulmalıdır. Ermənistanın Konstitusiyasına dəyişikliyi məsələsi onun daxili işi sayılsa da, orada Azərbaycana qarşı ərazi iddialarının olması, təbii ki, Azərbaycanı narahat edən bir məqamdır”.

Sülh müqavilələrinin hər hansı bir hökumətlə deyil, xalqla imzalandığını da diqqətə çatdıran Prezidentin köməkçisi əlavə edib: “Bizim də gözləntimiz ondan ibarətdir ki, sülh müqaviləsinə nail olunması üçün Ermənistan Konstitusiyasında edilməli olan dəyişikliklər referendum yolu ilə həyata keçirilməlidir. Erməni xalqı da nəhayət ki, öz mövqeyini bildirərək məlum “miatsum”, yəni Qarabağı Ermənistanla birləşdirmək kimi utopik iddialarına, bütün ərazi iddialarına, irtica siyasətinə son qoyulduğunu və Azərbaycanla sülh şəraitində yaşamaq niyyətini konstitusion əsasda ifadə etməlidir və ümumxalq referendumunda öz mövqeyini bildirməlidir. Hesab edirik ki, bundan sonra proses irəliyə doğru daha sürətlə gedə bilər”.

**XQ**

# Diplomatik korpusun üzvləri Kəlbəcərdə



**Azərbaycan Respublikasında akkreditə olunmuş səfirliklərin, beynəlxalq təşkilatların rəhbər şəxsləri və hərbi attaşelərinin işğaldan azad olunan ərazilərə növbəti səfərinin ünvanı Kəlbəcər olub.**

Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 2-də Kəlbəcərə səfərinin izi ilə dünən həyata keçirilən bu səfərdə nümayəndə heyətinin Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev müşayiət edib.

Diplomatik korpus nümayəndələrinin istiqamətində strategiyaya uyğun olaraq tikilən bu stansiya Vətən müharibəsində Qələbədən sonra regionda yaradılan ən böyük yaşıl enerji mənbəyidir.

Diplomatik korpusun nümayəndələri Kəlbəcər rayonunda dünya əhəmiyyətli memarlıq abidəsi olan Xudavəng monastır kompleksini də ziyarət ediblər.



səfərinin ilk dayanacağı Suqovuşan su anbarı olub. Nümayəndə heyətinin üzvləri sonra Sərsəng su anbarında olublar. Onlara görülən işlər barədə məlumat verilib.

Sonra Tərtər çayı üzərində yerləşən

Kəlbəcərdə son dayanacaq “İstisu” mineral su zavodu olub. Burada onlara bildirilib ki, ən son texnologiyaların tətbiqi nəticəsində zavodda yüksək keyfiyyətli mineral su istehsal edilməklə yanaşı, suyun



“AzərEnerji” ASC-nin 22,5 MVt gücündə “Yuxarı Vəng” Su Elektrik Stansiyasına gələn nümayəndə heyəti müəssisənin fəaliyyəti ilə tanış olub, onun barəsində ətraflı məlumat alıblar. Bildirilib ki, stansiyanın tikintisində xarici şirkətlər də iştirak ediblər. Qeyd olunub ki, işğaldan azad edilən ərazilərin yaşıl enerji zonasına çevrilməsi

təbii xüsusiyyətlərini qoruyub saxlamaq da mümkün olub. “İstisu” zavodunun illik istehsal gücü 100 milyon şüşə butulkadan artıqdır. Zavodda istehsal olunan su həm keyfiyyəti, həm də müasir standartlara cavab verməsi ilə seçilir.

**XQ**

***Sentyabrın 19–20-də keçirilmiş birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan Qarabağdakı qanunsuz separatçı rejimin mövcudluğuna son qoydu və özünün beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi.***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**(əvvəli 1-ci səhifədə)**

Ermənistanın hərbi-siyasi rəhbərliyi, bu rəhbərlik tərəfindən Qarabağda yaradılmış xunta rejimi üçtərəfli Bəyanatın imzalanmasından sonra yuxudan və xülyalardan ayılmadılar. Onlar bir tərəfdən, Qarabağın dağlıq hissəsində mövcud olan təbii sərvətləri talan edib Ermənistana daşıyır, digər tərəfdən Rusiya sülhməramlı kontingentinin müvəqqəti nəzarəti altında olan ərazilərə silah-sursat daşıyırdılar. Ermənistanın hərbi-siyasi dairələri reallıq hissini o dərəcədə itirmişdilər ki, hətta Azərbaycan rəhbərliyinin ciddi etiraz səslərini də qulaq ardına vururdular.

Erməni separatçı quldur dəstələri Rusiyanın müvəqqəti şəkildə bölgədə yerləşdirilmiş sülhyaratma kontingentinin gözü qarşısında yeni səngərlər və mühəndis-istehkam xətləri qurur, bölgəyə yeni hərbi qüvvələr və hərbi təchizat daşınmasını davam etdirirdilər. Yəni ayının 23-də isə Azərbaycanla Ermənistanı quru yolla birləşdirən Laçın yolu üzərində dövlət sərhəd-nəzarət postu qoyuldu. Bununla Azərbaycanın bütün sərhəd xətti respublikanın nəzarəti altına alındı və Azərbaycan öz ərazi bütövlüyünü təmin etmiş oldu.

Lakin erməni millətçi dairələri bundan sonra da öz təxribatçı əməllərindən əl çəkmədilər. Onlar iki respublika arasındakı sərhədin qeyri-işlək hissələrindən Qarabağ ərazisinə hərbi yüklər daşınmasına dəfələrlə cəhd göstərdilər. Bu cəhdlər hava çəkilişləri vasitəsilə qeydə alındı və onların yolverilməzliyi Qarabağ ərazisində müvəqqəti yerləşdirilmiş sülhməramlı kontingentin rəhbərliyinin nəzərinə də çatdırıldı.

Sakitləşmək bilməyən erməni millətçi-təcavüzkar dairələrinin qanunsuz fəaliyyətin təhlükəli hal almasının nəticəsi idi ki, 2023-cü il sentyabrın 18-də ermənilərin yol üzərində yerləşdirdiyi minalardan 6 Azərbaycan



# 19 – 20 sentyabr antiterror əməliyyatı Qarabağda erməni separatizminə son qoydu

açıq şəkildə Azərbaycana qarşı yeni bir hərbi təcavüzə ciddi hazırlıqlar aparılırdı və müşahidəçilər də bunun belə olduğunu inkar etmirdilər.

Bu açıq müharibə hazırlıqlarının və erməni revanşizminin qarşısını almaq üçün Azərbaycan Ordusunun bölmələri 2022-ci il mart ayının 24-25-də Fərrux dağını tam nəzarətə götürdü. Bununla Azərbaycan Ordusunun bölmələri bölgədə strateji mövqe üstünlüyünü daha da möhkəmləndirdi, Fərrux dağının ətrafındakı geniş vadi, Cinli, Çullu, Əlimədədli, Mollalar və Əliağalı kəndlərinin təhlükəsizliyi təmin edildi. Eyni zamanda, Yeddixırman və Daşbaşı zirvələri, habelə 1050 və 1145 saylı adsız yüksəkliklər, habelə Pirlər, Xanabad və Əsgərana qədər olan ərazilər Azərbaycan qüvvələrinin müşahidə nəzarəti altına düşdü.

Lakin erməni hərbi qüvvələri yenə də öz müharibə hazırlıqlarını və hərbi təxribatlarını dayandırmadılar. Üçtərəfli Bəyanatın imzalanmasından sonra atəşkəs rejimini davamlı şəkildə pozan erməni hərbi qüvvələri 2022-ci il avqust ayının 3-də daha qanlı bir təxribata əl atdılar. Belə ki, Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində mövcud olan qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 2020-ci il avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətdilər, əsgər Anar Kazımov şəhid oldu.

Azərbaycan Ordusu bölmələrinin bu təxribata cavab olaraq keçirdikləri "Qisas" əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin strateji əhəmiyyət kəsb edən Sarıbaba yüksəkliyi və bir sıra digər hakim yüksəkliklər nəzarət altına alındı. Prezident İlham Əliyev Fərrux dağı və Qırxqız–Sarıbaba yüksəklikləri ətrafında aparılmış döyüşlərin əməliyyat-taktiki əhəmiyyətini yüksək qiymətləndirib: "Fərrux əməliyyatı, Sarıbaba–Qırxqız əməliyyatı və digər hərbi əməliyyatlar həm bizim strateji mövqelərimizi böyük dərəcədə yaxşılaşdırmışdır. Eyni zamanda, Ermənistana göndərilmiş bir mesaj idi ki, bizi heç kim və heç nə dayandıra bilməz, Qarabağ Azərbaycan torpağıdır və burada vəziyyəti biz diktə edirik və siz dərhal silahlı qüvvələrinizi bizim torpaqlarımızdan çıxarmalısınız".

Baş verənlərdən nəticə çıxarmayan erməni hərbi qüvvələri 2022-ci il sentyabr ayının 12-də daha geniş hərbi təxribata əl atmaqla Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki bəzi mövqeləri, sığınacaqları və dayaq məntəqələri müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutdular. Nəticədə Azərbaycan bölmələtrinin şəxsi heyəti arasında itkilər baş verdi, hərbi infrastruktura ziyan dəydi.

Azərbaycan tərəfi bu təxribatı cavabsız buraxmadı. Həyata keçirilən qətiyyətli tədbirlər nəticəsində 2022-ci il sentyabr ayının 12–14-də Azərbaycan–Ermənistan sərhəd xəttində baş verən erməni hərbi təxribatlarının qarşısı uğurla alındı. Ali Baş Komandan İlham Əliyevin dediyi kimi: "Qarabağ bölgəsində bütün vacib olan məntəqələrə yerləşdik. Eyni zamanda, uzun illər ərzində işğal altında qalmış Azərbayca–Ermənistan sərhədini nəzarətə götürdük. Sərhəddə mövqelərimizi tədricən yaxşılaşdırdıq və müxtəlif tədbirlər nəticəsində Azərbaycan–Ermənistan sərhədinin böyük hissəsində ən əlverişli mövqelərə malik olduq".

Azərbaycanın dövlət rəhbərliyi kimi, Azərbaycan xalqı da ermənilərin bu oyunlarına qarşı öz etiraz səsini qaldırdı, Ermənistandan Qarabağ ərazisində yerləşən erməni hərbi qüvvələrinə silah və sursat gətirilməsinə və Qarabağdakı təbii sərvətlərin talanaraq Ermənistana daşınmasına etiraz əlaməti olaraq 2022-ci il dekabrın 12-də Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri, ekologiya fəalları və gənc könüllüləri Şuşa–Laçın yolunda etiraz aksiyasına başladılar. Onlar mülki, tibbi, ictimai daşınmalar istisna olmaqla, digər daşınmaların nəzarət altına alınmasını tələb etdilər. Qanunsuz daşınmaların və keçidin qarşısının alınması üçün 2023-cü il aprel

vətəndaşı öz həyatını itirdi. Əvvəlcə Avtomobil Nəqliyyatı Agentliyində çalışan iki nəfər Azərbaycan vətəndaşı Xocavənd rayonunda, sonra isə Daxili İşlər Nazirliyinin dörd əməkdaşı həmin rayon ərazisində mina qurbanı oldular.

Sentyabr ayının 19-da isə saat 11:45 radələrində Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqeləri Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutuldu. Bu atəş nəticəsində Azərbaycan Ordusunun 2 hərbi qulluqçusu yaralandı.

Bütün bu baş verənlər göstərdi ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycana qarşı öz iddialarından əl çəkmədiyi kimi, qondarma qurumun qondarma rəhbərliyi də Qarabağın dağlıq hissəsində yaşayan erməni sakinlərin Azərbaycana inteqrasiya edilməsi təkliflərini qəbul etmək istəmir.

Vətən müharibəsindən sonra bölgədə cərəyan edən təhlükəli revanşizm Azərbaycanın öz ərazilərində suverenliyini bütünlüklə təmin etmək üçün başqa seçim yolu qoymadı və dövlət rəhbərinin əmri ilə Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində lokal xarakterli antiterror əməliyyatının (tədbirinin) keçirilməsi qaçılmaz zərurət oldu.

Üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək Azərbaycan ərazilərindən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçuların təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi zəruriliyi bölgədə lokal xarakterli antiterror tədbirlərinin həyata keçirilməsinə yol açdı.

Bu antiterror əməliyyatı 2023-cü il sentyabr ayının 19-da, təxminən saat 13:00-da başladı. Bununla bağlı məlumat yayan Müdafiə Nazirliyi bildirdi ki, həyata keçirilən tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır. O da vurğulanırdı ki, Azərbaycan Ordusu tərəfindən bu əməliyyatın gedişində mülki əhali və infrastruktur obyektləri hədəfə alınmır, yalnız legitim hərbi hədəflər sıradan çıxarılır.

Şanlı antiterror əməliyyatı xüsusi olaraq planlaşdırılmış bir əməliyyat idi. Məqsəd də mülki əhaliyə və infrastruktura ziyan yetirmədən qarşıya qoyulan hədəflərə nail olmaq idi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev də bu antiterror əməliyyatının mülki əhaliyə ziyan vurmadan aparılmasını zəruri sayırdı: "Əməliyyat başlamazdan əvvəl mənim tərəfimdən bütün hərbi birləşmələrimizə bir daha ciddi tapşırıq verilmişdir ki, aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisi zərbə altına düşməməlidir və mülki əhali qorunmalıdır. Göstəriş verilmişdir ki, mülki infrastruktura da heç bir zərbə dəyməməlidir, ancaq hərbi infrastruktur sıradan çıxarılmalıdır".

Mülki əhaliyə və obyektlərə ziyan yetirilmədən antiterror əməliyyatının aparılması isə Azərbaycanın hərbi rəhbərliyindən xüsusi diqqət və qətiyyət tələb edirdi. 30 il ərzində Ermənistanın hərbi rəhbərliyi Qarabağın dağlıq hissəsinə böyük sayda hərbi qüvvə və texnika yerləşdirmiş və eşalonlaşdırılmış mühəndis-istehkam sistemi yaratmışdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, antiterror əməliyyatının aparıldığı sahə mürəkkəb relyefə malik idi, erməni döyüş mövqelərinin əksəriyyəti əlverişli yüksəkliklərdə yerləşmişdi.

Əldə edilən məlumatlar da göstərirdi ki, erməni hərbi qüvvələri, hətta Vətən müharibəsindən sonra Qarabağın dağlıq hissəsində hərbi imkanlarını xeyli artırmışdılar. Bəlli idi ki, antiterror əməliyyatının başlanması ərəfəsində erməni hərbi qüvvələrinin 300-ə yaxın artilleriya və 50-dən artıq minaatan mövqeləri var idi. Bunlardan başqa erməni hərbi qüvvələrinin ixtiyarında ondan artıq yer-hava raket sistemi, 6 radiolokasiya stansiyası, 20-dən artıq radioelektron mübarizə vasitəsi və təxminən 30 mobil operator baza stansiyası var idi.

Ali Baş Komandanı İlham Əliyev müəyyənləşdirdiyi döyüş tapşırıqlarının düzgün və vaxtında icra edilməsi üçün dərhal zəruri olan tədbirlərin icrasına başlandı. Bu məqsədlə əvvəldən aparılmış olan kəşfiyyatın nəticələri, düşmənin ehtimal olunan mina sahələrindən keçidlərin açılma yerləri, hərəkət istiqamətində düşmənin istifadə etdiyi yollar və onlara birləşmə yerləri döyüş tapşırıqlarına uyğun olaraq yenidən qiymətləndirildi.

Antiterror əməliyyatının başlamasından saat yarım sonra əməliyyatın gedişi ilə bağlı Azərbaycan Respublikası Müdafiə Nazirliyinin ilk məlumatı açıqlandı. Bildirildi ki, yalnız legitim hərbi obyektlər və hərbi infrastruktur dəqiq silahlarla hədəfə alınır və sıradan çıxarılır.Yaşayış məntəqələri yaxınlığında erməni atəş vasitələrinin yerləşdirilməsini nəzərə alaraq ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmasına və Ermənistan silahlı qüvvələrinin birləşmələrinə dəstək verməməsinə çağırış edildi.

Yerli əhalinin nəzərinə o da çatdırılırdı ki, qadınlar, uşaqlar, qocalar, habelə fiziki məhdudiyyətli şəxslər və xəstələrə lazımi tibbi və digər yardımlar göstəriləcək, onlar içməli su və ərzaqla təmin olunacaqdır. Əhalinin təhlükəli ərazidən təxliyəsini təmin etmək üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələri yaradılması da Müdafiə Nazirliyi tərəfindən bəyan edildi.

Antiterror əməliyyatının xüsusiyyəti nəzərə alınmaqla döyüşlərin və idarəetmənin təşkilində, qoşun növləri və bölmələr arasında qarşılıqlı əlaqələrin yaradılmasında, raket-artilleriya və hərbi-hava qüvvələrinin tətbiqində Vətən müharibəsinin təcrübəsi yaradıcı şəkildə nəzərə alınması əldə edilən nəticələrin miqyasına da öz təsirini göstərdi. Belə ki, kütləvi atəş zərbələri vaxtında plana uyğun olaraq yerinə yetirildi, ardınca sistematik atəş təsirləri mütəmadi olaraq həyata keçirildi, döyüş əməliyyatı bölgəsində olan bütün hərbi obyektlər, döyüş postları, komanda müşahidə məntəqələri dəqiq raket və artilleriya zərbələrinə tutuldu, yaşayış məntəqələrinə, mülkü şəxslərə və obyektlərə zərər vurmamaq üçün yüksək dəqiqlikli raket zərbələrinə geniş yer verildi, düşmənin kritik döyüş mövqelərinə raket və artilleriya zərbələri endirməklə Azərbaycan bölmələrinin itkilərinin minimuma endirilməsi təmin edildi.

Eyni zamanda, antiterror əməliyyatının başlanması ilə Azərbaycanın Hərbi Hava Qüvvələri tərəfindən əməliyyat rayonu üzərində havada üstünlük, hava məkanının müdafiəsi, hərbi obyektlərin və qoşunların hava hücumlarından etibarlı qorunması təmin olundu. Bütün bunlar isə antiterror əməliyyatının uğurlu gedişini təmin etdi. Bölmələr və qüvvələr üçün isə döyüş tapşırıqları konkretləşdirildi, onlar üçün döyüş sektorları müəyyənləşdirildi.

Sentyabrın 19-da aparılan əməliyyat nəticəsində Ermənistan silahlı qüvvələrinin 60-dan çox döyüş mövqeyi Azərbaycan bölmələrinin nəzarətinə keçdi, Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus 20-dən artıq hərbi təyinatlı avtomobil, 40-dan artıq artilleriya qurğusu, 30-dan artıq minaatan, 2 ədəd zenit-raket qurğusu, 6-dan artıq "Martira" radioelektron mübarizə stansiyası və digər hərbi təyinatlı vasitələri zərərsizləşdirildi. Xeyli sayda erməni hərbi texnikası və canlı qüvvəsi məhv edildi. Sentyabr ayının 19-da gecə saatlarında Azərbaycan Respublikasının Müdafiə Nazirliyi antiterror əməliyyatının aparıldığı rayonda yerləşən Ermənistan silahlı qüvvələrinin bölmələrinə silahın yerə qoyulması ilə bağlı çağırış etdi. Bildirildi ki, bu halda antoterror əməliyyatı da dayandırılacaqdır.

Lakin Ermənistanın hərbi-siyasi rəhbərliyi və Qarabağın dağlıq hissəsində yerləşən erməni hərbi qüvvələri bu çağırışı qəbul etmədilər və sentyabrın 20-də səhərdən döyüşlər yenə davam etdirildi. Bu zaman Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus minaatan mərmisi ilə dolu 6 ədəd Ural markalı hərbi avtomobil və 4 ədəd minaatan Silahlı Qüvvələrimizin bölmələri tərəfindən qənimət olaraq ələ keçirildi. Əsas döyüşlər isə Papravənd-Sərsəng, Qalayçılar–Heyvalı, Canyataq–Sırxa–vənd, Gülyataq–Mehmana, Abdal–Harov, Abdal–Yemişcan, Yuxarı Veysəlli–Qarakənd, Qacar–Sos, Qarabulaq–Xaçmas, Sıqnax–Dağdağan, Əliağalı–Kolataq, Abdal–Xocalı istiqamətlərində aparıldı.

Bu döyüşlərin gedişində Ermənistan silahlı qüvvələrinin Qarabağın dağlıq hidssəsində yerləşən hərbi qüvvələrinə ağır zərbə vuruldu, onların döyüş potensialı məhv edildi. Sentyabrın 20-də günorta saatlarına qədər Ermənistan silahlı qüvvələri birləşmələrinin tərtibləndiyi 90-dan artıq döyüş mövqeyi, eləcə də bir neçə strateji əhəmiyyətli yüksəklik Silahlı qüvvələrimizin nəzarətinə keçirildi. Eyni zamanda, qarşı tərəfə məxsus 7 ədəd hərbi nəqliyyat vasitəsi, 4 ədəd minaatan, 1 ədəd tank, 2 ədəd piyadanın döyüş maşını və xeyli sayda silah-sursat Azərbaycan bölmələri tərəfindən qənimət olaraq götürüldü.

Ermənistanın hərbi-siyasi rəhbərliyi də sentyabrın 20-də Qarabağın dağlıq ərazisində yerləşdirilmiş erməni hərbi qüvvələrinə ağır zərbə vurulmasını etiraf etmək məcburiyyətində qaldı. Bildirildi ki, bəzi istiqamətlərdə Azərbaycan hərbi qüvvələri "müdafiə ordusunun" döyüş mövqelərini ələ keçirərək bir sıra yüksəklikləri və strateji yol qovşaqlarını nəzarət altına ala bilmişdir. Erməni hərbi qüvvələri xeyli sayda itki vermişdir.

Günorta 13:00 radələrində Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış olan xunta rejiminin rəhbərliyi Azərbaycanın şərtlərini qəbul etməyə və silahı yerə qoymağa hazır olduğunu bildirdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu məsələyə münasibətini belə bildirdi: "Əməliyyatın uğurlu gedişatı, təbii ki, Ermənistan dövlətini və onun himayəsi altında fəaliyyət göstərən qanunsuz xunta rejimini ciddi təşvişə salmışdır. Ermənistan ordusunun bizim ərazimizdə qanunsuz məskunlaşmış birləşmələri silahları yerə qoymalı, tərk-silah olunmalı, bizim ərazimizdən tamamilə çıxarılmalıdır və eyni zamanda, bütün silahları və texnikaları təhvil verməlidirlər. Ancaq o təqdirdə Azərbaycan antiterror tədbirlərini dayandıra bilər. Bu gün səhər saatlarında artıq bizə bildirildi ki, bizim şərtlərimiz qəbul edilib".

Lokal antiterror əməliyyatının dayandırılması ilə bağlı Müdafiə Nazirliyi tərəfindən ictimaiyyət üçün açıqlama verildi. Həmin açıqlamada deyilirdi: "Azərbaycan Respublikası Müdafiə Nazirliyi bildirir ki, Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq 2023-cü il sentyabrın 20-də saat 13:00-da aşağıdakı şərtlər altında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunmuşdur".

Məlumatın davamında qeyd edilirdi ki, Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərksilah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.

Erməni tərəfi əvvəlcə antiterror əməliyyatının gedişində 100 nəfər, sonradan isə 200 nəfər canlı itkinin olduğunu bildirdi. Bu rəqəmlər ilkin rəqəmlər idi. Yaralıların sayı isə bu rəqəmlərdən yüksək idi.

Antiterror əməliyyatının dayandırıldığı saatlardan erməni hərbi qüvvələrindən silahların təhvil alınmasına, erməni döyüş mövqelərinin ləğv edilməsinə, silah və sursat anbarlarının nəzarət altına götürülməsinə başlandı. Xeyli sayda silah və susat müsadirə edildi ki, onların da bir qismi 2021-ci ildə istehsal olunmuşdu. Yəni 2020-ci il noyabr ayının 10-da razılaşdırılmış üçtərəfli Bəyanatın şərtlərinin əksinə olaraq, Ermənistan rəhbərliyi Qarabağın dağlıq hissəsində olan erməni hərbi qüvvələrini silahlandırılmasını davam etdirmişdi.

[illegible] -cü il oktyabrın ayının 2-də, saat 18:00-a olan məlumata görə, erməni hərbi qüvvələrindən aşağıdakı sayda silah, sursat və hərbi texnika müsadirə edilmişdi: atıcı silahlar – 2608, qumbaraatanlar – 235, top və haubitsalar – 60, minaatanlar – 64, tank əleyhinə silahlar – 58, HHM silahları – 165, zirehli texnika – 31, avtomobil texnikası – 265, qoşqular – 23, yardımçı texnika – 9, raketlər – 1700, top və haubitsa mərmiləri – 5177, zenit top mərmiləri – 31771, minaatan mərmiləri – 12806, qumbaralar – 5880, əl qumbaraları – 3068, patronlar – 2009970, digər sursatlar – 5778, optik cihazlar – 314, digər cihazlar – 38, fərdi təchizat vasitələri – 1027, müxtəlif silahların qurğuları – 15, digər təchizat vasitələri – 3323.

Bu rəqəmlər ilkin rəqəmlər idi və sonrakı günlərdə də erməni hərbi qüvvələrinə məxsus olan silah və sursatın tapılaraq müsadirə olunması davam etdirildi. Lokal xarakterli antiterror əməliyyatı başa çatandan sonra aşağıdakı yaşayış məntəqələri qondarma xunta rejiminin nəzarətindən azad edildi: Qırmızı Bazar qəsəbəsi (Xocavənd), Şuşakənd kəndi (Xocalı), Xəlfəli kəndi (Şuşa), Turşsu qəsəbəsi (Şuşa), Daşkənd kəndi (Xocalı), Heyvalı kəndi (Ağdərə–Kəlbəcər), Canyataq kəndi (Ağdərə–Tərtər), Təpəkənd kəndi (Ağdərə–Tərtər), Dağyurd kəndi (Xocalı), Qızıloba kəndi (Xocalı), Çərəkdar kəndi (Ağdərə–Kəlbəcər), Qozlukörpü kəndi (Ağdərə–Kəlbəcər), Qozlu kəndi (Ağdərə–Kəlbəcər), Yuxarı Quşçular kəndi (Şuşa), Zərdəxaç kəndi (Ağdərə–Kəlbəcər), Həsənriz kəndi (Ağdərə–Kəlbəcər), Qızılqaya kəndi (Ağdərə–Kəlbəcər), Yuxarı Oratağ kəndi (Ağdərə–Kəlbəcər), Xanqutala kəndi (Ağdərə–Kəlbəcər), Xaçmaç kəndi (Xocalı), Kərkicahan qəsəbəsi (Xankəndi).

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun yeni bir tarixi uğuru ilə sona çatan lokal xarakterli antiterror əməliyyatının nəticələrini belə dəyərləndirdi: "Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı cəmi bir gün, ondan da az çəkdi. Azərbaycan Ordusu peşəkarlıq və qəhrəmanlıq göstərərək, bütün strateji yerlərə çıxaraq, qısa müddət ərzində o əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. Nəinki təslim oldu, hətta 30 il bundan əvvəl bizim torpağımızda yaratdıqları qondarma rejimə də xitam verildi, o rejim də süqut etdi, halbuki bu, qanunsuz rejim idi. Beləliklə, biz tarixi ədaləti bərpa etdik. 20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr. Bu il aprelin 23-də biz Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədini nəzarətə alaraq ərazi bütövlüyümüzü tam bərpa etdik və sentyabrın 20-də dövlət suverenliyini tam bərpa etdik. Bununla separatçıların kitabı bağlandı. Artıq Azərbaycanda separatçılığa yer olmayacaq. Azərbaycan dövləti bu gün bütün əraziyə nəzarət edir".

Beləliklə, dünya hərb tarixində Azərbaycan Ordusu daha bir bir nadir əməliyyat həyata keçirdi. Bir sutkadan da az davam edən bu əməliyyat nəticəsində bölgədəki mülki əhaliyə və obyektlərə ziyan vurulmadan erməni hərbi qüvvələri məhv edildi və Azərbaycanın bütün ərazilərində respublikanın suverenliyi təmin edildi.

**Mehman SÜLEYMANOV,**
**Milli Müdafiə Universiteti**
**Hərbi Elmi Tədqiqat İnstitutunun**
**professoru**

# İran – Rusiya gərginliyi

(əvvəli 1-ci səhifədə)

Ölkəmizin lideri mayın 21-də İranın Bakıdakı səfirliyində Prezident Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və onları müşayiət edən digər şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olmaları ilə əlaqədar başsağlığı verərkən vurğulamışdı: "Bildiyiniz kimi, faciədən əvvəl biz iki saatdan çox birlikdə idik. Bir saatdan çox davam edən ikitərəfli görüş əsnasında bir çox önəmli məsələlər müzakirə edilmişdir. İran–Azərbaycan əlaqələrinin inkişafının gələcək istiqamətləri bir daha təsdiqlənmişdir və hər iki tərəfin güclü siyasi iradəsi bir daha nümayiş etdirilmişdir. Bununla bərabər, biz konkret infrastruktur layihələri haqqında geniş fikir mübadiləsi aparmışdıq, önəmli qərarlar qəbul edilmişdir. O görüşdə iştirak edən şəxslər bunu, əminəm ki, İranın yeni rəhbərliyinə çatdıracaqlar".

İndi nə deyək? Deyək ki, xoşbəxtliyin ömrü az imiş? Deyək ki, Prezident Rəisinin haqqında söz açdığımız tarixi görüşdən qayıtdıqdan sonra müəmmalı şəkildə helikopter qəzasında həyatını itirməsi hər şeyi məhv etdi? Əlbəttə, suallara cavab verərək, hansısa nəticələr çıxarmağa tələsmirik. Ancaq indi yaşananlar, istər-istəməz, düşünməyə vadar edir. Hər halda, İranın "qırmızı xətt" məntiqi fonunda, onun, belə demək mümkünsə, Ermənistan həssaslığının yenidən meydana çıxması suallar doğurmaya bilməz. "Zəngəzur dəhlizi"nin qlobal mahiyyətini, prezidentlərin dövlət sərhədində keçirdikləri görüşün səmimiyyət notlarını nəzərə alsaq, helikopter qəzasına da fərqli prizmadan yanaşmaq üçün əsaslar yaranır.

Amma konspiriologiyaya varmadan, hazırkı reallıqlar üzərində dayanaq. Reallıq isə budur ki, İran "Zəngəzur dəhlizi"nə qarşıdır. Yəni ölkə Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yolun "Azərbaycandan Azərbaycana yol" məntiqini inkar edir. Daha dəqiq desək, bu məntiqi Ermənistanın ərazi bütövlüyü və suverenliyinə zidd sayır və bəyan edir ki, regionda sərhədlərin dəyişməsinə yol verməyəcək. Belə görünür ki, Azərbaycan rəsmilərinin Ermənistana ərazi iddiamızın olmadığına dair fikirləri Tehran üçün maraqlı deyil. Yəni İrəvan Naxçıvana maneəsiz yolu necə süngü ilə qarşılayırsa, Tehran da eyni yolu tutur. Regiondakı gərginliyin hazırkı qütbünü müəyyənləşdirən elə budur. Gərginlik isə özünü yalnız Azərbaycan – İran deyil, eyni zamanda, İran – Rusiya münasibətləri baxımından da göstərməkdədir və bu məsələ üzərində dayanmağa daha çox ehtiyac var.



Yazımızın ilk abzasında haqqında söz açdığımız həssaslığı artıran məqama keçid alaq. Söhbət Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun Ermənistanın regional kommunikasiyaları sabotaj etməsini bildirməsindən gedir. Kremlin baş diplomatı İrəvanın 10 noyabr 2020-ci il tarixli Üçtərəfli bəyanatın icrasından boyun qaçırdığını dilə gətirmişdisə, Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova sözügedən bəyanatın 9-cu bəndi üzərində dayanaraq, sabotaj məntiqinə konkretlik gətirmişdi. Həmin bənddə isə bildirilir: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirirlər. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".

M.Zaxarova onu da demişdi ki, Rusiya, Azərbaycan və Ermənistan baş nazirlərinin müavinlərinin yaratdıqları birgə işçi qrupunun iclasında Naxçıvana yol məsələsində Ermənistanın yurisdiksiyasına zərər vurmayan formul hazırlanıbmış, ancaq İrəvan son anda bu formuldan imtina edib. Bəhanəsi belə olub ki, yolda təhlükəsizliyə cavabdeh olacaq Rusiya sərhədçiləri sərhədin Ermənistan tərəfində olduğu kimi, Azərbaycan tərəfində də dayanmalıdırlar. Lavrovun sabotaj məntiqindəki əsl konkretlik budur. Çünki Zaxarova Ermənistanın tələbinin üçtərəfli danışıqları dalana dirədiyini vurğulamışdı. Rusiyanın mövcud istiqamətdəki bəyanatlarından sonra isə İranın Ermənistan məsələsində daha da aktivləşdiyini gördük. Nəticədə İran – Rusiya gərginliyi aktiv fazaya daxil oldu.

Ümumən, hazırda İranın bütün dairələrində "Zəngəzur dəhlizi" məsələsində tam konsensusun mövcudluğuna dair təəssürat var. Tehran regional və qeyri-regional güclər arasında siyasi rəqabətdə yer alır və bu, Ermənistanın mövqeyi ilə uzlaşan məqamdır. Mövcud müstəvidə İranda nəinki anti-Rusiya, eləcə də anti-Türkiyə və anti-Azərbaycan demarşlarının, həmçinin Türk dünyasının birləşməsinin qarşısını almağa yönələn cəhdlərin şiddətlənəcəyini proqnozlaşdırmaq mümkün idi və belə də oldu.

Bəli, "Zəngəzur dəhlizi"nin İranın milli təhlükəsizliyi və ərazi bütövlüyünə təhlükə yaratdığına dair fikirlər gündəmdədir. Bu, əslində, çox qondarma məntiqdir və Tehranın ənənəvi türk xofundan başqa bir şey deyil. İkincisi, İranın regionda sərhədlərin dəyişdirilməsinin əleyhinə olması fonunda Ermənistanın müdafiəsinə heç bir ehtiyac yoxdur. Üçüncüsü, İslam Respublikasında belə fikir var ki, İran və Ermənistan arasında birbaşa sərhəd əlaqəsi bir neçə min illik tarixə malikdir və bütün ölkələr, o cümlədən, Rusiya bu sərhədlərə hörmətlə yanaşmalıdır. Görəsən, söhbət hansı minilliklərdən gedir? Axı ermənilərin Qafqaza köçürülmələrinin tarixi cəmi 200 ildir. Digər tərəfdən, sərhədlərə hörmətsizlik heç bir vaxt olmayıb və yoxdur. "Zəngəzur dəhlizi"nin mövcudluğu ənənəvi İran–Ermənistan əlaqəsini inkar etmir və xoş niyyət olsa, bu istiqamətdə konsensusa gəlmək mümkündür.

Ancaq hazırda dövriyyədə olan məlumatlar konsensus məntiqinin ikinci planda olduğunu söyləməyə əsas verir. Nəinki, bu məntiq ikinci plandadır, eyni zamanda, deyəsən, havadan barıt qoxusu da gəlir. Məsələn, İranın Xarici İşlər Nazirliyindəki mənbələr Londonda yerləşən "Middle East Eye" analitik nəşrinə bildiriblər ki, İslam Respublikası Rusiyanın "Zəngəzur dəhlizi" ilə bağlı mövqeyini öz maraqları üçün təhdid sayır və İran – Ermənistan sərhədi bağlanarsa, hərbi güc tətbiqinə hazırdır.

"Middle East Eye" habelə Tehrandakı mənbəyə istinadən bildirir ki, S.Lavrovun avqustun 19-da Bakıda "Zəngəzur dəhlizi" ilə bağlı verdiyi bəyanatın İslam Respublikası tərəfindən "strateji təhlükə" kimi qəbul edilib-edilmədiyi dəqiqləşdirilir. Bunun üçün Rusiyanın İrandakı səfiri Aleksey Dedov ölkənin Xarici İşlər Nazirliyinə çağırılıb və Tehranın narahatlığı onun diqqətinə çatdırılıb. "Rəsmi olaraq, biz bunu səfir çağırışı adlandırmadıq", – deyən mənbə əlavə edib ki, İran hökuməti "Zəngəzur dəhlizi"nin İrəvanın nəzarətində qalması mövqeyində ardıcıl və qətiyyətlidir: "Əks halda, biz Ermənistanla sərhədimizi itirəcəyik".

Bəli, hazırda Moskva ilə Tehran arasında Azərbaycanı Naxçıvanla birləşdirən nəqliyyat kommunikasiyalarının açılması və Rusiyanın onlara nəzarəti ssenarisi ətrafında görünməmiş qarşıdurma yaşanır. Bütün bunlar oktyabrda Kazanda keçiriləcək və İranın yeni seçilmiş prezidenti Məsud Pezeşkianın da iştirak edəcəyi BRIKS sammiti ərəfəsində baş verir. Sammit çərçivəsində İranın dövlət başçısı ilə onun rusiyalı həmkarı Vladimir Putin arasında ikitərəfli görüş nəzərdə tutulub. Fikirlərini diqqətə çatdırdığımız mənbə Pezeşkian Putin təməsının xoş alınacağını proqnozlaşdırsa da, görüşdə ümumi gərginlik ab-havasının təsirinin hiss edilməsi mümkündür. Ancaq tərəflər ortaq məxrəcə də gələ bilərlər. Hər halda, dövlət başçılarının təminatları tamam başqa müstəvidir. İndi Rusiya İrana Qərbin regionda üstünlüyə yiyələnmək cəhdlərinin ikinci üçün də müsbət heç bir perspektiv vəd etmədiyini anlatmalıdır.

Sonda bir daha deyək ki, Ermənistan 44 günlük müharibənin məğlubu kimi üzərinə düşən öhdəliyi yerinə yetirmir. Ölkə 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əməl etmir. Naxçıvana maneəsiz – heç bir gömrük və sərhəd nəzarəti olmayan yolun təmin etməkdən boyun qaçırır. "Dünyanın kəsişməsi" adlı avantüranı irəli sürür və bu zaman ərazi bütövlüyü və suverenlik klişesini əldə bayraq edir. Tam aydındır ki, bu, bir oyundur və oyunun sifarişçiləri var. Tehran Qərbin Ermənistan üzərindən axıtdığı bulanıq sularda üzməməlidir.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# ANCA sülh yolunda əngəldir

(əvvəli 1-ci səhifədə)

Dinləmələrdə əsas müzakirə mövzusu Bakıda saxlanılan və ədalət mühakiməsinin barələrində çıxaracağı hökmü gözləyən Qarabağdakı keçmiş separatçı rejimin "qlavar"larının və digərlərinin (yayılan məlumatda onlar "erməni hərbi əsirlər" adlandırılır–S.H.), guya, ölkəmizdəki siyasi məhbusların vəziyyəti, Qarabağdakı erməni mədəniyyət nümunələrinin statusu, ermənilərin Qarabağa qayıtmaq hüququ və sair məsələlər olacaq.

Bədnam ANCA-nın canfəşanlığı bununla bitmir. Elə həmin gün komitənin təşəbbüsü ilə erməni lobbiçilərinin çoxluq təşkil etdiyi ABŞ Konqresində lokal xarakterli antiterror tədbirlərinin birinci ildönümü ilə bağlı genişmiqyaslı tədbir keçiriləcək. Əlbəttə, komitənin yaydığı məlumatda antiterror tədbirlərinin adı belə təhrif olunub. Ölkəmizin zərurətdən, separatçıların təxribatlarına son qoymaq məqsədilə keçirdiyi tədbirlər "Azərbaycanın "Artsax"a amansız hücumunun ildönümü" kimi qələmə verilib. ANCA-nın yaydığı məlumatda deyilir: "Konqress liderləri, icitmai fəallar və koalisiya tərəfdaşları sentyabrın 19-da Kapitoli təpəsi adlandırılan yerdə Azərbaycanın "Artsax"da 2020–2023-cü illərdə törətdiyi "soyqırımı"na görə məsuliyyətə cəlb edilməsinə həsr olunmuş tədbirdə iştiraka toplaşacaq və yerli ermənilərin qlobal mandat və beynəlxalq müdafiə altında təhlükəsiz qaytarılmasına çağıracaqlar. "Cavabdehlik 2024" adlı tədbir Azərbaycanın 2023-cü il sentyabrın 19–20-də on aylıq mühasirədən (?) sonra etnik təmizləmə və 120 min (?) etnik erməninin öz tarixi vətənlərindən qovulması (?) ilə başa çatan "Artsax"a hərbi hücumunun birinci ildönümünə təsadüf edir".

ANCA-nın icraçı direktoru Aram Ambaryanın sözlərinə görə, onlar Amerikanın hər yerindən Vaşinqtona ona görə toplaşırlar ki, Azərbaycana hərbi yardıma qanunvericilik yolu ilə qadağa qoyulsun və ölkəmizə sanksiyalar tətbiq etməklə bizi məsuliyyətə cəlb etsinlər: "Birləşmiş Ştatlar BMT Təhlükəsizlik Şurasının "Artsax"ın yerli ermənilərinin beynəlxalq himayəyə alınmasını tələb edən qətnaməsinin icrasına rəhbərlik etməklə bu prosesi geri qaytara bilər və qaytarmalıdır".

Qeyd etmək lazımdır ki, ANCA bundan əvvəl də həm Tom Lantos adına İnsan Hüquqları Komissiyasında, həm də Konqresin özündə tədbirlər keçirib. Amma onların tədbirlərinin heç bir real nəticəsi olmayıb. Özləri və dəvət edilmiş bir neçə şəxs yığışıb ölkəmizin qarasına danışıb, şər-böhtanlarını səsləndirib, sonra da dağılışıb. Erməni diasporun pulu müqabilində lobbiçilik edən konqresmenlər və senatorlar bununla da işlərini bitmiş hesab ediblər. Əslində, bu tədbirlərin nəticə verəcəyi də gözlənilən deyildi. Məsələ ondadır ki, konqresmen və senatorlar hər yerdə özlərini təmsil edirlər və öz adlarından danışırlar. Onların daşıdıqları məsuliyyət dövlətlərin məsuliyyət yükü ilə müqayisə oluna bilməz. Bizim üçün əsas olan dünya dövlətlərinin mövqeyidir. Antiterror tədbirlərinin mahiyyətini başa düşən dövlətlər bizə qarşı hansısa sanksiya tətbiq etməyi heç xəyallarına gətirməməlilər. Çünki bu tədbirlərin məqsədinin ölkəmizin ərazi bütövlüyünü bərpa etmək olduğunu və sanksiya tətbiq edəcəkləri təqdirdə bunun hansı mənfi nəticələr doğuracağını anladılar.



Əlbəttə, bu cür tədbirlərin keçirilməsinin ölkəmizdə xoş qarşılanması da mümkün deyil. Bununla hər halda ölkəmizin imicinə xələl gətirilməsinə çalışırlar. Zənnimizcə, Türkiyədə çox yaygın olan bir deyimi burada işlətmək yerinə düşər: "Çamur (palçıq–S.H.) at, özü qalmasa da, izi qalsın". Bu deyim bir hadisənin, əməlin yalan olduğu isbatlansa belə, onun təsirinin uzun müddət davam etməsini özündə ehtiva edir.

Amma dahi Lev Tolstoy da yaxşı deyib: "Birinə çamur atmadan öncə yaxşı düşün və heç unutma: öncə sənin əllərin çirklənəcək!". Bizi nüfuzdan salmağa, ləkələməyə çalışan konqresmen və senatorlar da bununla öz reputasiyalarına xələl gətirdiklərinin fərqində olmalıdırlar. Onlar müxtəlif qara-qura işlərlə məşğul olan senator Robert Menendezin aqibətindən nəticə çıxarmalıdırlar. Çünki onun yolu ilə getməyin sonu uçuruma yuvarlanmaqdır.

Ermənilərə, necə deyərlər, "züy tutan" dairələr, nəhayət, qəlblərinin dərinliklərində bildikləri həqiqəti dilə gətirmək cəsarəti də tapmalıdırlar. Azərbaycan Ordusunun ötən ilin sentyabrında həyata keçirdiyi tədbirlərin ərazi bütövlüyümüzün tam təmin edilməsi, Qarabağ iqtisadi rayonunun hər yerində suverenliyimizin bərpa olunması, separatçı rejimin varlığına son qoyulması məqsədi daşıdığını dilə gətirə bilməsələr də barı sussunlar. Onlar haylara havadarlıqdan, revanşistlərə dəstəvüz verməkdən əl çəkməlidirlər. Senator və konqresmenlər bu hadisələri Azərbaycana qarşı hansısa sanksiyaların tətbiqi, ölkəmizin, guya, "etnik təmizləmə" həyata keçirməsi kimi heç kəsin inanmadığı yalanları gündəmə gətirmək üçün istifadə etməyə cəhd göstərməməlidirlər.

Onu da qeyd edək ki, ANCA adlanan qurum bu kimi əməlləri ilə Ermənistan hakimiyyətinin mövqeyinə qarşı da çıxır. Bu gün rəsmi İrəvan Bakı ilə sülh müqaviləsi üzrə danışıqlar aparır. Bir neçə gün öncə Ermənistan xarici işlər naziri Ararat Mirzoyan sülh müqaviləsi layihəsinin 16 maddəsinin 13-ü üzrə tam razılığa gəlindiyini, 3 maddənin isə qismən razılaşdırıldığını bildirmişdi. Qeyd etmişdi ki, sazişin tezliklə imzalanması üçün real şans var. Dünən isə baş nazir Nikol Paşinyan dünya erməni sammiti zamanı sülh müqaviləsinin imzalanmasından sonra Azərbaycandan qaz idxalını və ya tranzitinin mümkünlüyünü istisna etmədiyini bildirib: "Biz qazı Rusiya və İrandan idxal edirik. Bir müddət əvvəl Azərbaycandan açıqlamalar gəldi ki, gələcəkdə sülh yaranarsa, Ermənistan Azərbaycandan da qaz idxal edə bilər. Ermənistan ərazisindən Naxçıvan və ya Türkiyəyə tranzit qaz kəmərinin keçdiyini təsəvvür edərək, o zaman bu variantları da istisna etmək olmaz".

Ümumiyyətlə, Ermənistan hakimiyyəti son vaxtlar leksikonuna ciddi düzəlişlər edib. Paşinyanın və onun hökumət üzvlərinin istifadə etdikləri sözlər diasporda cəmləşib işi-gücü aranı qızışdırmaq olan ermənilərin istifadə etdikləri kəlmələrdən əhəmiyyətli dərəcədə fərqlənir. Bu isə Hayastan baş nazirinin Azərbaycanın "dəmir yumruğ"unun gücünü 2020–2023-cü illərdə dəfələrlə görməsindən irəli gəlir. Xaricə qaçıb, gizlənib oradan, necə deyərlər, xoruzlananlar isə zərbəni bilavasitə öz üzərlərində hiss etmədikləri üçün danışdıqları sözün məsuliyyətini də anlamırlar. Onların əməlləri, obrazlı desək, bölgədə suyu bulandırmağa xidmət edir. Bu çərçivədə ANCA-nın bədnam fəaliyyəti xüsusilə seçilir.

Qeyd edək ki, ANCA ABŞ-də geniş fəaliyyət göstərən erməni diasporunun əsas təşkilatı olmaqla, Azərbaycan torpaqlarında etnik separatizm ocağının yaranmasında, sonrakı dövrdə rayonlarımızın işğal olunmasında və bu işğalın uzun illər davam etməsində özünəməxsus rol oynayıb. Yaxşı təşkilatlanmış komitə bütün digər erməni diaspor qurumlarından daha çox nümayəndəliyə və ofis şəbəkəsinə malikdir. Təşkilatın mənzil-qərargahı Vaşinqtonda yerləşir. Həmçinin onun İrəvanda da ofisi var. İşğalın davam etdiyi müddətdə ANCA Xankəndiyə də soxulmuşdu. ANCA müxtəlif gənclər təşkilatlarının, mətbu orqanların və institutların təsisçisidir. Qurum "Massis Weekly", "Armenian Liberty", "Snark News Agency" və "Armenian News" kimi media resursları ilə yaxın əlaqələrə malikdir. ANCA-nın fəaliyyətinin müəyyən mənada buxovlanması, onun rəhbərlərinin Ermənistana buraxılmaması Paşinyanın Azərbaycanla sülh istəyində səmimi olmasının daha bir göstəricisi ola bilər. Ermənistan hökuməti Fransa erməni təşkilatlarının əlaqələndirmə şurasının həmsədri Murad Papazyanı, "Daşnaksütyun" partiyasının Fransa bölməsinin gənclər birliyinin sədri Njde Karakavoryanı arzuolunmaz şəxs elan edib ölkəyə buraxmadığı kimi, fəaliyyəti ilə sülh prosesində tormozlayıcı rol oynayan ANCA liderləri barəsində də tədbirlər görməlidir.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin rəhbəri Fərid**



**Şəfiyev** məsələ ilə bağlı bildirdi ki, ABŞ Konqresində vaxtaşırı anti-Azərbaycan tədbirləri keçirilir. Onun sözlərinə görə, erməni diasporu və lobbisi bu prosesdə xüsusi aktivliyi ilə seçilirlər. Diaspor və lobbi ölkəmizin ünvanına "etnik təmizləmə", "mənəvi terror", "mənəvi irsin dağıdılması" kimi absurd ittihamlar irəli sürür, bu kimi fikirləri təbliğ edir: "Bundan əlavə, hansısa hərbi cinayət məsələsini də tez-tez qabardırlar. İddia edirlər ki, guya, Azərbaycan hərbi cinayət törədib. Uydurmalarla ermənilərə qarşı hərbi cinayətin törədildiyini deyirlər. Onlar qondarma rejimin süqut etməsindən sonra onun saxlanılan sabiq başçılarını da "əsirlər" adlandırırlar".

F.Şəfiyev qeyd etdi ki, Qarabağdakı "erməni mədəni irsi"nin aqibəti məsələsi də onların tez-tez müraciət etdiyi məsələlərdəndir: "Halbuki, ermənilərə məxsus olmuş mədəniyyət nümunələrinin dağıdılması məsələsi yoxdur. Buna baxmayaraq, erməni yalanları, dezinformasiyaları və diaspor–lobbi tandeminin aktiv fəaliyyəti davam edir".

Mərkəz rəhbərinin fikrincə, onların aktivliyi həm də bizim passivliyimizdən qaynaqlanır: "Yəni bu məsələdə bizim bəzi boşluqlarımız var. Bu, bir-iki analitik mərkəzin görəcəyi iş deyil, kompleks tədbirlərə ehtiyac duyulur. Erməni yalanları ilə kollektiv mübarizə aparılmalıdır. Bütövlükdə, erməni diaspor və lobbisinin fəaliyyətinin Ermənistan dövləti və onun vətəndaşları üçün müsbət nəticələnəcəyini düşünmürəm. Erməni diaspor və lobbisinin fəaliyyəti 44 günlük Vətən müharibəsi zamanı nəticəsiz qaldı, eləcə də post-müharibə dövründə də nəticəsiz qalacaq".

*Səxavət HƏMİD*
*XQ*

# Qarabağın “axırıncı aşırım”ı

## Bir il əvvəlki antiterror əməliyyatı Azərbaycanın tam qələbəsini təmin etdi



***Ermənistan, sanki, İkinci Qarabağ müharibəsinin nəticələrini unutmuşdu. Üç il ərzində biz yenə də səbir göstərmişdik, yeni gərginləşmə vəziyyəti yaratmaq fikrində deyildik. İkinci Qarabağ müharibəsindən antiterror əməliyyatına qədər keçən dövr ərzində bunun bütün xronoloji məqamları bir daha onu göstərir ki, Azərbaycanın mövqeyi ədalətli mövqedir. Düzdür, Ermənistan və onun arxasında duran qüvvələr bunu görmək istəmirlər. Ancaq hər şey sənədləşdirilib, bu gün heç nəyi gizlətmək mümkün deyil. Üç il ərzində nəinki Ermənistan öz silahlı qüvvələrini Qarabağ bölgəsindən çıxarmadı, hətta əlavə silah-sursat, minalar göndərir, bizə qarşı mina terroru daha geniş vüsət almışdı. Ona görə antiterror əməliyyatı qaçılmaz idi.***

***Prezident İlham Əliyevin 2024-cü il fevralın 14-də andiçmə mərasimindəki nitqindən***

* Azərbaycanın “Dağlıq Qarabağda etnik təmizləmə” apardığını iddia edən bəzi ölkələr və beynəlxalq təşkilatlar bütün dünyanı haylara köməyə səsləyirdi;

* Dünyanın 40 ölkəsi “Azərbaycanın əməlləri nəticəsində ermənilərin üzləşdiyi humanitar böhran və kütləvi köçkünlüklə bağlı” ciddi narahatlığını bildirdi;

* BMT İnsan Haqları üzrə Ali Komissarlığına (İHAK) “bölgədə vəziyyəti izləməyi və bu barədə Təhlükəsizlik Şurasını məlumatlandırmağı” tapşırdı;

* İHAK “mülki şəxslərə qarşı hərbi güc tətbiqindən narahatlığını ifadə etdi, ermənilərin hüquqlarının qorunmasının vacibliyini” vurğuladı;

* Ali komissar “insan haqlarının pozulması ilə bağlı müstəqil araşdırmaların aparılması və hesabatlılığın təmin edilməsinin zəruriliyindən” danışdı;

* Beynəlxalq Ədalət Məhkəməsi və digər təşkilatlar “Azərbaycan tərəfindən insan hüquqlarının pozulması” barədə məlumat yaydı;

* Ermənistan İHAK-ı “monitorinqi davam etdirməyə və nəticələri şura ilə bölüşməyə” çağırdı.

...Bunlar 2023-cü il sentyabrın 20-dən sonra ermənipərəst ölkə, təşkilat və qurumların qaldırdığı hay-küyün qısa xronikasıdır. Bir il bundan əvvələ qədər isə Qarabağın Azərbaycanın nəzarətində olmayan hissəsində Rusiya sülhməramlı kontingentinə güvənən erməni separatçı quldurların qalıqları Xankəndidə meydan sulamaqda idi. Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, işğaldan azad olunmuş doğma yurdlarına qayıtmağa başlayan keçmiş məcburi köçkünlərin təhlükəsizliyinə təhdidlər yaratmaqda davam edən bu xunta rejimi hər cür təxribata əl atır, vətəndaşlarımıza qarşı terror aktları törədirdilər. Bu, həm də onun nəticəsi idi ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın tələblərinə əməl etməyən Ermənistan üç il ərzində öz silahlı qüvvələrinin tör-töküntüsünü, hərbi texnikasını Qarabağ iqtisadi rayonumuzdan çıxarmamışdı. Azərbaycan Dövlət Sərhəd Xidmətinin 2023-cü il aprelin 23-də Ermənistandan Qarabağdakı qeyri-qanuni rejimi saxlamaq üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də hərbi təyinatlı digər vasitələrin daşınmasının qarşısını almaq məqsədilə Laçın–Xankəndi yolunun başlanğıcında “Laçın” nəzarət-buraxılış məntəqəsini qurmasından sonra da separatçılar cinayətkar əməllərini davam edirirdilər.

***

Daha vəziyyət bu cür davam edə bilməzdi. Bakının səbrini daşıran sonuncu damla 2023-cü il sentyabrın 19-u səhər saatlarında erməni quldurlarının törətdiyi növbəti terror aktı oldu. Əhmədbəyli–Füzuli–Şuşa yolunda basdırılmış minanın partlaması nəticəsində 2 mülki şəxs həyatını itirdi. Artıq gün kimi aydın idi ki, Azərbaycan dövləti təxirəsalınmaz tədbirlər görməsə, kənardan şirnikləndirilən Xankəndidəki separatçılar daha da azğınlaşacaqlar.

Həmin gün nəyi, nə vaxt və necə edəcəyini çox gözəl bilən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın Rusiya sülhməramlılarının nəzarətində olan hissəsində antiterror tədbirləri keçirmək barədə əmr verdi. Sərkərdənin zərgər dəqiqliyi ilə hazırladığı lokal əməliyyatın nəticəsi hamıya məlumdur: antiterror tədbirinin başladığı 23 saatdan sonra xunta rejimi ağ bayraq qaldırdı. Bununla da təkcə Qarabağda deyil, Cənubi Qafqazda erməni separatizminin kökü kəsildi. Bu, Azərbaycanın son 100 ildə qazandığı möhtəşəm hərbi uğurlarından biri, müzəffər Ordumuzun növbəti tarixi Zəfəri, daha doğrusu, Zəfərdən sonra qoyulan nida işarəsi idi.

**“Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı bir daha Silahlı Qüvvələrimizin gücünü göstərdi. Cəmi bir neçə saat ərzində Ermənistan ordusunun təxminən 15 minlik ekspedisiya korpusu tamamilə iflic vəziyyətinə salınmışdır və onlar ikinci dəfə kapitulyasiya aktına imza atmağa məcbur olmuşlar. Bununla da Azərbaycan ərazisində separatizmin kökü kəsildi. Bununla da Azərbaycan həm öz ərazi bütövlüyünü, həm də dövlət suverenliyini tam bərpa etdi. Bu, tarixi hadisədir və bu hadisə bizim çoxəsrlik tariximizdə xüsusi yerə malikdir”.**

Prezident İlham Əliyevin 2024-cü il fevralın 14-də andiçmə mərasimindəki nitqindən gətirdiyimiz ikinci sitat, doğrudan da, baş vermiş hadisənin tarixi əhəmiyyətini dəqiqliklə göstərir. O tarixi günün gələcəyinə hamımız əmin idik. Üçrəngli bayrağımızın Şuşadan sonra Xankəndidə dalğalanması 30 il davam edən münaqişədə axırıncı aşırımın da keçildiyini müjdələdi. Qarabağlılar, bütün xalqımız yarımçıq qalmış savaşın tam və qəti qələbə ilə başa çatmasından sonra dərindən və rahat nəfəs aldılar.

Bəs ötən bir il ərzində nələr baş verdi? Bölgədə yaranan yeni hərbi-siyasi reallığı həzm edə bilməyən qüvvələrin son bir ildə Azərbaycana qarşı dezinformasiya hücumları daha da artdı. Məhz Xankəndidə separatçılığın kökü kəsiləndən sonra Qərbdən Ermənistana hərbi və maliyyə yardımlarının çoxaldığının şahidi olduq. Üzdə sülh danışıqlarında vasitəşilik missiyasını yerinə yetirən ermənipərəst Qərb arxada hayları silahlandırmaqla məşğuldur. İkiqat kapitulyant ölkənin tərəfdarları hələ də Ermənistanı Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqla barışmağa qoymur, Qərbin müəyyən dairələri erməniləri Qarabağa qaytarmaqla bağlı çağırışlar edir, Bakıya diplomatik və ideoloji təzyiq göstərirlər. Ermənistan baş naziri Nikol Paşinyan və ermənilərin mütləq əksəriyyəti üçün Qarabağ mövzusu bağlansa da, həmin dairələr bölgədə özəl maraqlarını təmin etmək üçün anti-Azrbaycan kampaniyasına son qoymağa tələsmirlər.

***

El məsəlimizdə “it əl çəkdi, motal əl çəkmədi” deyimində olduğu kimi, ABŞ Konqresində erməni lobbisinin puluna satılmış bir qrup “Artsax” ermənisinin Qarabağa qayıdışını müzakirəyə çıxarır, Azərbaycana qarşı müxtəlif ittihamlar irəli sürürlər. Həmin konqresmenlərin anti-Azərbaycan müzakirələrinin heç bir əhəmiyyəti olmayacaq. Hara çəksələr də, nə qədər uzatsalar da, qarşıdakı mərhələdə iki ölkə arasında sülh sazişinin imzalanması gəlir. Azərbaycanla Ermənistan arasında əldə olunacaq sülh dinc və sabit “Qafqaz evi”nin yaranmasına şərait yaradacaq. Bunun alternativi yoxdur və ola da bilməz.

Bəli, Azərbaycan aparıcı dövlətə çevrildiyi bölgədə yeni reallıq yaradıb və bunu dəyişmək “böyük güclər”in belə imkanı xaricindədir. İntəhası, bəzi çevrələr bu gün də Ermənistanda deyil, Cənubi Qafqazda yerlərini möhkəmlətmək naminə çirkin ssenarilərindən, oyunbazlıqlarından əl çəkmirlər. “Kollektiv Qərb”in dirijoru funksiyasını yerinə yetirən Fransa Ermənistanı həm hərbi cəhətdən gücləndirməyə çalışır, həm də siyasi müstəvidə ona himayədarlıq edir. “Qoca qitə”nin Avropa İttifaqına üzv bəzi ölkələri də Yelisey sarayından çalınan musiqiyə “züy tutmaqla” məşğuldurlar. Bu məşğuliyyətin faydasız və son nəticəsiz olduğunu anlayanlar da var. Çünki onlar Azərbaycanın gücünü və iradəsini əməldə gördülər. Qatar çoxdan yola düşüb, tarixin təkərini geri döndərmək mümkün deyil.

**“Hələ Bayraq meydanının açılışında demişdim ki, bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq, bizim siyasətimiz bundan ibarət idi. Biz bütün gücümüzü səfərbər edib bu hədəfə doğru gedirdik, biz hər gün, hər saat bu müqəddəs günü yaxınlaşdırırdıq. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək!”.**

Cənab Prezidentdən gətirdiyimiz üçüncü sitat həmin müqəddəs günün dəyərini bilən xalqımızın uğurlu gələcəyə inamı ilə düz mütənasibdir. Qarşıda bizi gözləyən uğurların davamlı olması üçün Azərbaycanın siyasi iradəsi kimi, imkanı da yetərincədir. Təki, hələlik qonşu deməyə dilimiz dönməyən haylar sülhə gəlsinlər.



Yazımızın əvvəlində verdiyimiz ermənipərəstlərin hay-küy xronikasının fonunda mütləq Qələbəmizin birilliyi ilə bağlı qeydlərimizi pozitiv çalarlar üzərində yekunlaşdırmaq istərdik. Amma acı həqiqət budur ki, Qarabağdan barıt qoxusu hələ tam çəkilməyib. Azərbaycanın bir il bundan əvvəl söndürdüyü münaqişə ocağını yenidən körükləməyə çalışanlar var. Ötən bir ildə başı daşdan-daşa dəymiş Ermənistan baş naziri Nikol Paşinyan bu gün erməni xalqından üzr istəyir. Ən azı, bir il əvvəl olduğu kimi, xalq–ordu–hakimiyyət birliyini özündə təcəssüm etdirən “dəmir yumruğ”un təminatı ilə Azərbaycanın daha böyük uğurlara imza atacağına artıq Ermənistan baş nazirinin də şübhəsi yoxdur. Buna əminliyimizi bildiririk!

***İmran BƏDİRXANLI***
***XQ***

---

**Antiterror şəhidi**

# Nağıla dönən qəhrəman

**Vətən müharibəsində Böyük Qələbəmizi həzm edə bilməyən mənfur düşmən Qarabağdakı tör-töküntülərini silahlandıraraq tez-tez təxribatlar törədirdi. Ağdərə, Xocavənd, Xocalı rayonları və kəndlərində və Xankəndi şəhərində “direniş” göstərirdi. Pozuculuq əməllərindən cana doyan Silahlı Qüvvələrimiz, nəhayət, “terror” özbaşınalığının qarşısını birdəfəlik almağa qərar verdi.**



2023-cü il sentyabr ayının 19–20-də 23 saat davam edən uğurlu lokal antiterror əməliyyatının həyata keçirilməsində müzəffər ordumuz möhtəşəm uğura imza atdı. Amma bu, qurbansız da ötüşmədi. Dövlət suverenliyimizin tam bərpası uğrunda döyüşlərdə şəhidlər də verdik. Onlardan biri “Komando” kəşfiyyat bölüyünün cəsur əsgəri Məhəmməd Xəlilli oldu.

Məhəmməd 2004-cü ilin sentyabr ayının 17-də İsmayıllı rayonunun Basqal qəsəbəsində dünyaya göz açıb. Onun 6 yaşı olanda ailəsi Binəqədi rayonunun Biləcəri qəsəbəsinə köçüb. Yeniyetmə çağlarından cüdo ilə məşğul olub. İdman onun güclü, dözümlü, iradəli olmasında böyük rol oynaydb. 2022-ci ilin oktyabr ayında Binəqədi rayon hərbi komissarlığından əsgəri xidmətə çağrılıb və “komando” təlimlərinə qatılıb. Zirəkliyi sayəsində kəşfiyyat bölüyünə qəbul edilib.

Ailə üzvləri deyir ki, Məhəmmədin “komando”bölüyündə xidmət etməsindən xəbərləri olmayıb, bunu yalnız o, şəhid olduqdan sonra biliblər. Özü sirr saxlayırmış ki, narahat olmasınlar. Yalnız 2023-cü ilin avqust ayında 10 günlük məzuniyyətə gələndə deyibmiş ki, Qarabağ dünyanın cənnət məkanıdır, Hadrut çox gözəldir. Razı olmarıq ki, buralarda nankor düşmənlər gəzib kef eləsinlər.

Antiterror tədbirləri olduqca yüksək peşəkar səviyyədə təşkil edilib, əməliyyatlar mülki əhaliyə heç bir xətər dəymədən uğurla başa çatdırılıb. Düşmənin dərinliyinə sızan qüvvələrimiz Xocavəndi, Ağdərəni, Xocalını və Xankəndini düşməndən azad ediblər. Xocavənd rayonunun Qarakənd kəndi istiqamətində hücuma keçən bölmələrimizin tərkibində Məhəmməd Xəlilli də böyük fədakarlıq göstərərək düşmənin bir çox canlı qüvvəsini məhv edib. Sentyabrın 19-u saat 17–18 radələrində isə namərd düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub.

İşə baxın ki, atası İlqar müəllim dəfələrlə oğlunun şəhid olmasını röyalarda görübmüş. Hər dəfə yuxudan hövlnak oyanıb deyirmiş ki, İlahi, sən özün xeyirə cala! Bu, nə yuxulardır, görürəm? Məhəmməd əsgərliyə getməmişdən əvvəl ağır bel əməliyyatı keçirsə də, mütləq əsgər gedəcəyəm, – deyirdi. Vətən qarşısında müqəddəs şəhidlik andı içibmiş.

Bacısı Zeynəb xanımın sentyabrın 19-u ad günü olacaqdı. Amma ailə həmin günü göz yaşları içində keçirib. Zeynəb deyib ki, daha heç vaxt ad günü keçirməyəcəm, o gün artıq Məhəmmədin şəhadət günüdür.

Onu da deyək ki, Xəlilovlar ailəsi Məhəmmədin toyuna hazırlaşırdı. Onun bir könüldən-min könülə vurulduğu istəklisi də varmış. İgidi 23 yaşında evləndirəcəkmişlər. Amma o, 23 saat düşmənlə savaşda qəhrəmancasına şəhid oldu.

İndi hər gün atası, anası və bacısı Məhəmmədin şəkilləri ilə pıçıldaşır və istər-istəməz kövrəlirlər. Ancaq təsəlliləri budur ki, o, Azərbaycanın tam suverenliyinin bərpası uğrunda mübarəzədə canını qurban verib. Rəşadətli Silahlı Qüvvələrimizin hərbi qulluqçusu Məhəmməd Xəlilli 2023-cü il sentyabrın 20-də 2-ci Fəxri Xiyabanda torpağa tapşırılıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu Məhəmməd Xəlilli Prezident İlham Əliyevin sərəncamına əsasən, 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni və “Vətən uğrunda” medalı ilə təltif edilib.

Sentyabrın 20-də qəhrəmanımızın həlak olmasının 1-ci ildönümüdür. Cənnətdəki mövludun mübarək, qəhrəman!

***Rüfət HÜSEYNLİ***

# Separatizmə son – tam suverenlik “simfoniyası”





**Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün aparılan müharibədir!**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

## Vətən savaşının son akkordları

II Qarabağ savaşı müasir və müstəqil Azərbaycan dövlətçilik tarixinin qürur mənbəyi və əbədi yaddaşıdır. Azərbaycan öz lideri, xalqı, ordusu ilə dünyaya sübut etdi ki, müstəqil dövlət olmağa tam layiqdir. Avrasiyanın son 40 illik tarixində buna bənzər nümunə yoxdur.

Azərbaycan dövləti, cəmiyyəti və ordusu XXI əsr üçün “Vətən müharibəsi” anlayışının yeni nümunəsini ortaya qoydu. Hərb, siyasət və diplomatiya meydanlarında, informasiya və mənəviyyat mübarizəsində sübut etdi ki, qalib gəlməyi bacarır və buna layiqdir.

Bununla Azərbaycan Respublikası regionda və ondan uzaqlarda geosiyasətin ritmini yeniləşdirdi, məzmununa ədalətlilik və hüquqi normalara əməl etmək kimi iki mühüm faktor əlavə etdi. Bu, birbaşa Azərbaycan müstəqil dövlətinin töhfələridir.

Ancaq burada bir məqam qalmaqda idi. Kənar qüvvələrin müdaxiləsi ilə Azərbaycan rəhbərliyi işğal edilmiş ərazilərin bir qismindən təcavüzkarları qovmamışdı. Yəni Vətən savaşının “son akkordları”nı hələ dünya eşitməmişdi.

2023-cü il sentyabrın 19–20 tarixində, həqiqi mənada, çoxlarını informasiya şokuna salan tarixi hadisə baş verdi. Azərbaycan Ordusu cəmi 23 saat 41 dəqiqə ərzində Qarabağda təcavüzkar erməni silahlı qruplaşmalarının son qalıqlarını darmadağın etdi. Şübhə yoxdur ki, Ermənistana havadarlıq edənlər bu həmləni gözləmirdilər. Onlar Azərbaycan Ordusunun döyüş hazırlığını və hərbi idarəetmədəki yüksək peşəkarlığını da heyrətlə qarşıladılar.

Öncə nə baş verdiyini nə hərb meydanında, nə də siyasi-diplomatik aspektdə dərk edə bilmədilər. Ermənilərin xüsusi seçilmiş qruplarını ildırım sürəti ilə zərərsizləşdirən Azərbaycan Ordusunun döyüş qabiliyyətini həzm etmək istəmədiklərindən real vəziyyəti də düzgün qiymətləndirmək imkanlarını itirdilər. Eyni qayda ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın BMT yüksək tribunasından Azərbaycan Ordusunun əməliyyatını dəstəkləyən bəyanatını orada iştirak edən bir çoxları heyrət və təəccüblə qarşıladılar.

Bu cür reaksiyalar, əslində, 2023-cü il antiterror tədbirlərinin dərin və geniş təsirə malik olduğunu təsdiqləyirdi. Burada əsrlərdir ki, bir sıra dairələrin qafalarında mövcud olan ehkamları Azərbaycan qısa müddətdə alt-üst etdi.

Birincisi, Azərbaycanın müstəqil dövlət kimi öz hüquqlarını qoruya bildiyini göstərdi.

İkincisi, Azərbaycan ərazi bütövlüyü ilə tam suverenliyi bir müstəqil dövlət kimi hüquqi çərçivədə vəhdətdə qəbul etdiyini sübuta yetirdi. Bu isə o deməkdir ki, Azərbaycan Respublikası müasir anlamda müstəqil dövlət olmanın başlıca fəlsəfi və siyasi-nəzəri meyarına əməl etdiyini göstərdi.

Üçüncüsü, antiterror tədbirləri Azərbaycanın dövlət kimi qətiyyətini və mübarizlik əzmini dünyaya nümayiş etdirdi.

Dördüncüsü, Azərbaycan əsgəri şəhid və qazi olmaq mədəniyyətinə yüksək səviyyədə malik olduğunu sübuta yetirib. Cəmiyyət və dövlət də buna böyük saygı ilə yanaşdığını və əbədi olaraq qəlblərdə yaşadacağını təsdiq etməkdədir.

Deməli, antiterror tədbirləri həm hərbi peşəkarlığın, həm cəmiyyətin mənəvi zənginliyinin, həm də xalq–hakimiyyət birliyinin növbəti təsdiqi hadisəsidir. Bu məqamda antiterror tədbirlərinin hərbi tərəfinin bir məqamı üzərində dayanmağa ehtiyac görürük.

## Lokal “İldırımsürətli əməliyyat”

Azərbaycan Ordusu cəmi 23 saat 41 dəqiqə ərzində XXI əsrdə nəticəverici və sürətli hərbi əməliyyatları necə aparmağın yeni nümunəsini yaratdı. Əsgərlərin fədakar və peşəkar fəaliyyəti, ordunun koordinasiyalı idarə edilməsi və düşmənin üzərinə çəkinmədən getməsi mövcud olan videokadrlardan aydın görünür. Komandolar elə sürətlə və səmərəli döyüşürdülər ki, dünyanın ən peşəkar orduları belə onlara həsəd aparmaqda idilər. Bu özəlliyin qaynağı nədir?

Hər şeydən öncə, Azərbaycanda Heydər Əliyevin başladığı ordu quruculuğu prosesinin fəlsəfəsini vurğulamaq lazımdır. Ulu öndər bu prosesi elə təşkil etdi ki, ordu daimi inkişafa nail ola bildi. Məsələ yalnız hərbi-texniki təchizatla bağlı deyildir. Dövlət rəhbərliyi əsgərlərin motivasiyası ilə hərbi hazırlığının tələb olan səviyyədə uyğunlaşmasına nail oldu.

Digər cəhət gənclərin son 20 ildə vətənpərvərlik ruhunda tərbiyəsi ilə bağlıdır. Azərbaycan Prezidenti davamlı kursu ilə Vətəni üçün canından keçməyə hazır olan yeni nəsil yetişdirdi. Komandolar onların təmsilçiləridir. Onlar döyüş meydanında hərbi peşəkarlıqla vətənpərvərliyi üzvi surətdə birləşdirən qəhrəmanlarımızdır. Antiterror tədbirləri zamanı göstərilən hərbi və mənəvi yüksəklik məhz bunların nəticəsidir.

Başqa bir keyfiyyət ölkə rəhbərliyinin və ordu komandanlığının Ali Baş Komandanın başçılığı ilə hərbi əməliyyatları yüksək peşəkarlıqla təşkil etməsi ilə əlaqəlidir. Məsələ onunla bağlıdır ki, müasir mərhələdə şərti olaraq, “İldırımsürətli” adlandırdığımız hərbi əməliyyatları həyata keçirmək üçün çox sayda və fərqli təbiətə malik faktorları nəzərə almaq lazım gəlir. Azərbaycan lideri bunu yüksək səviyyədə bacardı!

## Antiterror tədbirlərinin geosiyasi töhfələri

Həmin tədbirlərin regional miqyasda çox ciddi geosiyasi-hərbi nəticələri oldu. Hər şeydən öncə, uzun müddətdir ki, “güclü erməni ordusu”nu yaradanlar peşman oldular. Bunun ucuz bir təbliğat mifi olduğu sübut edildi. Xüsusilə, antiterror tədbirlərinin cəmi 23 saata say-seçmə erməni silahlı qruplarını yerlə-yeksan etməsi geosiyasi-hərbi baxımdan çox vacib hadisə idi. Bir zamanlar “yeni müharibə, yeni torpaqlar” deyən erməni rəhbərliyi indi “qalanı saxlayaq” tezisi ilə başlarını qatmağa çalışırlar.

Bu, adi dəyişiklik deyildir. Bütövlükdə Cənubi Qafqazda regional miqyasda geosiyasi dinamikanın yeni nəfəs almasıdır. Artıq bu regionda heç bir məsələnin Azərbaycansız həll edilə bilməyəcəyini qəbul etdilər. Bir vaxtlar Ulu öndərin “Hər bir dövlət Azərbaycanla hesablaşmalıdır. Biz əsarəti qəbul etmirik. Ya müstəqil yaşayacağıq, ya da yaşamaqda anlam görmürük” tarixi kəlamlarının reallaşdığının şahidi olduq! Bizə fəxarət hissi verən bu fikirləri başqaları da qəbul etmək məcburiyyətində qaldılar.

Antiterror tədbirlərinin regionlararası miqyasda geosiyasi nəticələri də danılmazdır. Müxtəlif beynəlxalq reytinq cədvəllərində Azərbaycan Ordusu layiqli yerini tutmaqdadır. Yəni dünya dövlətləri indi Azərbaycan Ordusunu hazırlıqlı və qarşısına qoyduğu məqsədə çatmaq qüdrətində olan hərbi sistem kimi qəbul edirlər.

Bunun fonunda, məsələn, Ermənistan ordusu haqqında heç br fikir yoxdur. Əslində, buna ordu da demək doğru deyildir. İndi ermənilərin havadarları Ermənistan silahlı qüvvələrini yeni silahlarla təchiz etməklə nəyəsə nail olmaq istəyirlər. Müşahidələr göstərir ki, təcavüzkarı silahlandıranların sayı getdikcə artır. Yəni hansısa dövlətlər regionda geosiyasi vəziyyəti yenidən xaotik duruma salmaqda maraqlıdırlar. Özü də bunu təcavüzkarı dirçəltmək yolu ilə etməyə çalışırlar. Onun fonunda antiterror tədbirlərinin strateji əhəmiyyəti aydın olur.

## Strateji əhəmiyyəti

Bir il öncə keçirilmiş antiterror tədbirləri faktiki olaraq həm də gələcəyə mesajdır. Məlumdur ki, hazırda dünyanın hər bir regionunda geosiyasi mənzərə və dinamika sürətlə dəyişir. Bir il öncə dominant olan şərtləri başqaları əvəz edir. Məsələn, İsrail – Fələstin və Rusiya – Ukrayna münaqişələri, İranda islahatçıların hakimiyyətə qayıdışı prosesi, Azərbaycanın TDT-ni gücləndirmək istiqamətində atdığı addımlar, Ermənistana Qərbin lazımsız dəstəkləri, Gürcüstanda faktiki olaraq siyasi böhranın dərinləşməsi və s. kimi proseslər Cənubi Qafqazda da ümumi geosiyasi dinamikanı yeniləşdirməkdədir. Bu yeni şərtlər daxilində Azərbaycan müstəqil dövlət kimi yenə də uğurlu olmalıdır. Bunun bir sadə səbəbi vardır: Cənubi Qafqazda sabitlik, təhlükəsizlik və əməkdaşlığın qarantı Azərbaycan Respublikasıdır!

Bu baxımdan antiterror təbdirləri Azərbaycanın lider kimi özünütəsdiqi hadisəsi olaraq da qəbul edilməlidir. Eyni zamanda, həmin əməliyyatlar strategiyada analoji situasiyalarda səmərəli fəaliyyətin fəlsəfəsini də özündə daşıyır. O, statik nəticəsi olan hadisə deyildir. Elə bir nümunədir ki, gələcəyə hesablanmış addımların bazası rolunu oynaya bilər. Çox güman ki, biz bunları zaman-zaman meydana gələn müxtəlif xarakterli durumlarda daha aydın anlayacağıq.

## Qürur və ilham qaynağımız

Azərbaycan xalqı həmişə öz ordusu və əsgəri ilə fəxr etmişdir. Tarixin müxtəlif dönəmlərində azərbaycanlılar hərbi şücaətlər göstərmişlər. Azərbaycan xalqı görkəmli sərkərdələr yetişdirmişdir. Onlar ən çətin hərbi şəraitdə belə qalib olmuşlar. Bununla belə, 300 il öncə Azərbaycanın qanlı imperialist müharibə nəticəsində parçalanması ordu və əsgər haqqında təsəvvürlərə də ciddi zərbələr vurmuşdur. Öncə Rusiya imperiyası, sonra isə sovetlər demək olar ki, azərbaycanlıları döyüşə bilməyən, alverdən başqa bir iş bacarmayan insanlar kimi təqdim etməkdən yorulmadılar. Qısa edək: müstəqilliyə qədər (Azərbaycan Demokratk Respublikasının çox az təcrübəsini çıxmaqla) Azərbaycanın real ordusu olmamışdır. XX əsrin son onilliyində əldə edilən müstəqilliyin ilk illərində də bir sıra dairələr “bizə ordu lazım deyil” kimi çox zərərli fikirlə oturub-dururdular.

İndiki Azərbaycan Ordusu II Qarabağ savaşında və antiterror tədbirlərində məhz bu kimi zərərli və aşağılayıcı sindromları sındırdı. Tarixi-hərbi baxımdan çox qısa müddətdə, birincisi, ordu özünü toparladı, ikincisi, ruslardan qalma neqativ mənəvi, psixoloji, hərbi və ideoloji simptomlardan xilas oldu, üçüncüsü, dünyanın aparıcıları ilə müqayisə edilə biləcək idarəetmə sisteminə malik modern ordu səviyyəsinə yüksəldi.

Əlbəttə, bütün bunlara nail olmaq üçün hakimiyyət – cəmiyyət – ordu vəhdəti olmalı idi. Oldu! Azərbaycan dövləti və xalqı ordusundan heç nəyi əsirgəmədi. Qüsurlar ardıcıl olaraq aradan qaldırıldı və təkmilləşmə indi də davam edir. Bütün bunlarla bərabər, əldə edilən hərbi və geosiyasi uğurların baş memarı vardır: Prezident İlham Əliyev!

Azərbaycanın dövlət başçısı siyasi varislik prinsipinə tam əməl edərək böyük zəhmət və yüksək siyasi-diplomatik məharət sayəsində davamlı olaraq dövləti, xalqı və ordunu Böyük Qələbəyə və şanlı antiterror tədbirlərinə doğru apardı!

Müstəqil dövlətimiz, liderimiz və antiterror tədbirlərini həyata keçirən ordumuz qürur və ilham qaynağımızdır!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# 23 saatlıq ölümsaçan yürüş

*Yaxud qazi Şəhriyarın Xocalıda başa çatan döyüş yolu*

**2023-cü ilin 19–20 sentyabrı müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusunun Zəfər yürüşünün parlaq təcəssümü, qızıl hərflərlə yazılan yeni qəhrəmanlıq dastanımızın növbəti səhifəsi kimi tarixə düşdü. Məhz həmin gün erməni separatçılarının Qarabağda törətdikləri genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələri birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanıldı.**

Hərbi əməliyyatlar, həmçinin Qarabağda Azərbaycanın Konstitusiya quruluşunun bərpa edilməsi, işğaldan azad olunmuş ərazilərdəki öz ata-baba yurdlarına qayıdan keçmiş məcburi köçkünlərin, habelə bərpa-quruculuq işlərində çalışan mülki insanların və hərbi qulluqçularımızın təhlükəsizliyini təmin etmək məqsədi daşıyırdı. İyirmi üç saat davam edən lokal əməliyyat zamanı xarici havadarlarının dəstəyi ilə “təpədən-dırnağa” silahlanmış ermənilər müqavimət göstərə bilməyəcəklərini, məğlubiyyətin labüd olduğunu anlayaraq ağ bayraq qaldırdılar.

44 günlük İkinci Qarabağ müharibəsində olduğu kimi, 19–20 sentyabr lokal antiterror tədbirləri də beynəlxalq hərbi ekspertlərin diqqətini cəlb etdi. Bu əməliyyatın yüksək peşəkarlıqla hazırlandığını və dəqiqliklə icra edildiyini bütün dünya izlədi. 3 il əvvəl “dəmir yumruğ”un zərbini görmüş yağı bu dəfə də şirürəkli Azərbaycan əsgərinin qarşısında duruş gətirə bilmədi.



Vətənimizin ərazi bütövlüyünün və suverenliyinin bərpası uğrunda gedən döyüşlərin iştirakçılarından biri də Xocalı sakini Şəhriyar Zamanovdur. O, həm Vətən müharibəsinin, həm də 19–20 sentyabr antiterror əməliyyatlarının iştirakçısıdır. İki dəfə yaralansa da yenidən döyüş meydanına qayıtmış Şəhriyar XQ-nin Qarabağ bürosuna bu barədə xatirələrini danışdı:

– Ailəmiz Xocalı rayonundan məcburi köçkün kimi müvəqqəti olaraq Yevlax rayonunun Xaldan qəsəbəsində məskunlaşıb. Mən də 1990-cı ildə burada anadan olmuşam. 2009-cu ildə həqiqi hərbi xidmətə çağırılmışam. Xidmətimi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında keçdikdən sonra 2014-cü ilə qədər müddətdən artıq xidmət edən (MAXE – M.R.) hərbi qulluqçu kimi orada qalmışam. Daha sonra tərxis olundum. Ancaq 2020-ci ildə Tovuz hadisələri zamanı mərhum generalımız Polad Həşimovun şəhid olması xəbərini eşitdikdə bir an belə fikirləşmədən yenidən hərbi xidmətə qayıtmaq qərarına gəldim və ordu sıralarına daxil oldum.

Elə həmin il Vətən müharibəsinin başlanması şəxsən mənim üçün ən böyük arzumun reallaşması demək idi. Çünki atam, yaxın qohumlarımızın çoxu Birinci Qarabağ müharibəsinin iştirakçıları olmuşdular. Atamın əmisi Namazov Novruz Qulu oğlu Xocalıda şəhid olmuşdu. Mən də bu söhbətləri dinləyə-dinləyə böyümüşəm və hər zaman arzulayırdım ki, müharibə başlayaydı, şəhidlərimizin qisasını alaydım. Allaha şükür edirəm ki, Ali Baş Komandanımızın rəhbərliyi altında bu arzumuz reallaşdı...

Vətən müharibəsi zamanı ilkin olaraq Murovdağ istiqamətində döyüşlərə atılan Şəhriyar daha sonra Ağdərə rayonunun Talış kəndinin və Suqovuşan qəsəbəsinin düşməndən təmizlənməsində iştirak edib. Suqovuşanda yaralanıb. Ayağından və belindən qəlpə yaraları alıb. Ancaq Vətən sevgisi kimi, hərbi sahəyə həvəsi də azalmayıb. Müharibədən sonra da hərbi xidmətini davam etdirən cəsur xocalılı döyüşçü 2021-ci ildə qardaş Türkiyədə dağ-komando kurslarını müvəffəqiyyətlə bitirərək peşəkarlığını daha da artırıb, komando kimi Azərbaycana qayıdıb. Əslən Xocalıdan olan Şəhriyar Zamanov Zəfərlə bitən şərəfli döyüş yolunu belə xatırlayır:

– Vətən müharibəsində qazandığımız şanlı Qələbə nəticəsində uzun illər boyu torpağımıza göz dikmiş mənfur düşmən layiqli cəzasını aldı. Ancaq Qarabağda, o cümlədən, ata-babalarımın doğma yurdu Xocalıda separatçıların mövcudluğunun davam etməsi, necə deyərlər, mənə rahatlıq vermirdi. Ona görə də separatçılara qarşı antiterror tədbirlərinin keçirilməsi hər bir azərbaycanlının ürəyincə idi. Həmin döyüşlərin də iştirakçısı olmuşam və sentyabrın 19-da sol əlimdən yaralanmış, həmçinin qapalı kəllə-beyin travması almışam. Ancaq antiterror əməliyyatlarının, ümumilikdə, doğma Vətənimin azadlığı uğrunda gedən döyüşlərin iştirakçısı olduğum üçün özümü xoşbəxt sayıram. Heç bir yara, heç bir xəsarət bu xoşbəxtlik duyğusuna təsir edə bilməz. Əksinə...

Onu da qeyd edək ki, Şəhriyar Zamanovun xidmətləri dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. O, Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə “Suqovuşanın azad olunmasına görə”, “Vətən müharibəsi iştirakçısı” və “Sücaətə görə” medalları ilə təltif edilmişdir.

*Mahir RƏSULOĞLU,*
*XQ-nin Qarabağ müxbiri*

# Heydər Əliyev Fondunun yeni töhfələri

**Dünən Bakının Nərimanov rayonunda yeni inşa edilən "Kəpənək" uşaq bağçasının açılışı olub. Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.**







"Kəpənək" məktəbəqədər təhsil müəssisəsinin direktoru Yuliya Əliyeva bildirib ki, bağçada 3-4, 4-5 və 5-6 yaş arasında qruplar fəaliyyət göstərəcək. Burada yüksəkkeyfiyyətli təhsillə yanaşı, uşaqların hərtərəfli inkişafı və sosial tədbirlərdə fəal iştirakı da diqqət mərkəzində olacaq. Uşaqların zehni və yaradıcı inkişafı üçün dərsdənkənar fəaliyyət də nəzərdə tutulub.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iki mərtəbədən ibarət bağçanın müxtəlif yaş qrupları üçün nəzərdə tutulmuş otaqları ilə tanış olub, tədris barədə vacib tövsiyələr verib.

Qeyd olunub ki, burada uşaqların təlim-tərbiyəsinə cəlb olunan heyətin davamlı peşəkar inkişafına, müxtəlif təlimlərdə iştirakına xüsusi önəm veriləcək. Məktəbəqədər təhsil müəssisəsi təhsildəki yeniliklər və yeni trendləri izləməyi, o cümlədən, Kembric proqramını keyfiyyətli tədris etmək üçün onlayn təlimlərə qoşulmağı da planlaşdırır.

*

**Həmin gün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Biləsuvar rayonunda yeni inşa edilən Bəydili kənd tam orta məktəbində də olub.**

Məktəbin direktoru Nurlan İmanov bildirib ki, məktəbin 1983-cü ildə inşa olunmuş binası ötən müddət ərzində istifadəyə yararsız vəziyyətə düşmüşdü. Buna görə Heydər Əliyev Fondu tərəfindən Bəydili kənd orta məktəbi üçün yeni bina inşa olunub və bu tədris ilində istifadəyə verilib.

Qeyd edilib ki, 7 korpusdan ibarət yeni məktəb binası 1400 şagird yerlikdir. Təhsil ocağında 56 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi, tibb və əmək təlimi otaqları, iclas və idman salonları və açıq meydança yaradılıb. Bina zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə təchiz edilib.

Leyla Əliyeva şəhid ailələrinin üzvləri, məktəbin şagirdləri və onların ailə üzvləri ilə söhbətləşib. Kənd sakinləri onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

*

Biləsüvara səfər zamanı Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva həmin gün Biləsuvar rayonunun Əliabad kəndində Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun ailəsini ziyarət edib.

Milli Qəhrəmanın döyüş yolunun, vətənpərvərlik, qəhrəmanlıq nümunəsinin gənc nəslə aşılanması üçün yaradılmış ev muzeyinə gələn Leyla Əliyeva burada Mübariz İbrahimovun şəxsi əşyaları, onun həyat yolunu əks etdirən eksponatlarla tanış olub. Qəhrəmanın ailəsinin yaşadığı evə gələn Leyla Əliyeva Azərbaycanın Milli Qəhrəmanının atası və anası ilə çay süfrəsi arxasında söhbət edib.

**XQ**

# Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı

**Dünən Azərbaycan Dövlət Akademik Filarmoniyasında Milli Musiqi Günü münasibətilə Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalının açılış mərasimi olub.**



Məclisi giriş sözü ilə açan mədəniyyət nazirinin müavini Səadət Yusifova bildirib ki, sentyabrın 18-i dahi bəstəkar, pedaqoq, publisist, ictimai xadim Üzeyir Hacıbəylinin anadan olmasının 139-cu ildönümü və bəstəkarın şərəfinə təsis edilmiş Üzeyir Musiqi Günüdür. Sentyabrın 18-dən 28-dək keçirilən Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı çərçivəsində Bakı, Gəncə, Şəmkir və Naxçıvanda irihəcmli tədbirlərin, eyni zamanda, bütün ölkədə silsilə tədbirlərin təşkili planlaşdırılır.

Festival çərçivəsində açıq və qapalı məkanlarda konsertlər, tamaşalar, sərgilər, elmi konfrans, ustad dərsləri keçiriləcək. Şuşa şəhərində də bir sıra tədbirlər nəzərdə tutulub. Şəhərdə Şərqin ilk muğam operası "Leyli və Məcnun" nümayiş olunacaq, görkəmli bəstəkar Süleyman Ələsgərovun 100 illiyinə həsr olunan konsert təşkil ediləcək.

Qeyd edilib ki, budəfəki festivalda ABŞ, Almaniya, Xorvatiya, Avstriya, Türkiyə, Rusiya, Koreya Respublikası, İspaniya, Braziliya və digər ölkələrdən solist və bədii kollektivlər iştirak edir. İlk dəfə olaraq Azərbaycan Milli Konservatoriyası UNESCO nəzdində fəaliyyət göstərən Ənənəvi Musiqi və Rəqs üzrə Beynəlxalq Şuranın Simpoziumunu təşkil edib.

Mərasim Üzeyir Hacıbəylinin əsərlərindən və milli musiqi nümunələrindən ibarət konsert proqramı ilə davam edib.

**XQ**

# Media məlumat bazası müzakirə edilib

**Mətbuat Şurasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə reallaşdırdığı "Azərbaycan media landşaftı üzrə məlumat bazasının yaradılması" layihəsi çərçivəsində üçüncü toplantı keçirilib.**




Şura sədri Rəşad Məcid bildirib ki, layihə çərçivəsində MŞ-nin saytında "Azərbaycanın media landşaftı" adlı xüsusi kateqoriya yaradılıb. Həmin kateqoriya özündə "Azərbaycanda informasiya dövriyyəsini tənzimləyən qanunlar", "İnformasiyanın etik standartlarını müəyyən edən yerli və beynəlxalq sənədlər", "Azərbaycanın aparıcı media subyektləri", "Azərbaycan mediasından gender balansı", "I və II Qarabağ müharibəsi dövründə Azərbaycan mediası" yarımkateqoriyalarını, həmçinin layihə çərçivəsində yayımlanmış məqalələri və keçirilmiş tədbirləri birləşdirib.

Şuranın icraçı katibi Əvəz Rüstəmov, İdarə Heyətinin üzvü, layihənin eksperti Müşfiq Ələsgərli iştirakçıları "Azərbaycanın media landşaftı" kateqoriyalarının xüsusiyyətləri ilə bağlı geniş məlumatlandırıblar.

İdman Jurnalistləri Assosiasiyasının prezidenti Eldar İsmayılov, BDU-nun kafedra müdiri, dosent Əsmər Əliyeva, Bakı Slavyan Universitetinin professoru Şəlalə Həsənova və başqaları layihənin əhəmiyyətindən danışıblar.

**XQ**

Replika

# Hay "arşını"

**Baş vermiş hadisəyə, fakt və arqumentə, gözlə görünən reallığa qərəzli yanaşmaq, bunlara özlərinə sərf edən formada şərh vermək erməni "siyasi əxlaqının" çoxdan formalaşmış səciyyəvi xüsusiyyətlərindən sayılır. Bu zaman diplomatik ritorikadan riyakarcasına yararlanmağa çalışan erməni ideoloqları, xüsusilə, Azərbaycan və Türkiyəyə qarşı altməqsədli tezislərdən gen-bol istifadə edirlər. Hətta iz azdırmaqdan ötrü hədəfə götürdükləri konkret ölkənin ünvanına təşbihlər yağdırmaq kimi məkrli üslubu da dövriyyəyə buraxırlar.**

"Rusiya ilə Azərbaycanın yaxınlaşması Türkiyədə ciddi narahatlıq yaradıb". Bunu türkoloq Ruben Safrastyan "NEWS.am"-ın müxbiri ilə söhbətində ərz edib. Hay ekspert rəsmi Ankaranın Ermənistanla münasibətlərin normallaşdırılması üzrə xüsusi nümayəndəsi Serdar Kılıçın Rusiyaya, oradan da Bakıya səfərini məhz öz "arşınına" görə izah edir. "Ankara həm Moskvanın, həm də Bakının Cənubi Qafqazdakı vəziyyət, eləcə də Rusiya və Azərbaycan münasibətləri ilə bağlı yanaşmalarını anlamağa çalışır",– deyən Safrastyan hesab edir ki, Türkiyə üçün İrəvanla münasibətləri, guya, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması qədər önəmli deyil.

Türkiyənin 2020-ci ildən sonra yaranmış vəziyyəti sənədləşdirmək üçün sülh sazişinin mümkün qədər tez imzalanmasında maraqlı olduğunu deyən erməni ekspert yaranacaq vəziyyəti Türkiyə üçün irəliyə doğru atılan addım kimi şərh etməyə çalışır: "Çünki, o, bölgədə mövqelərini gücləndirib, Rusiya isə zəiflədib".

Onun düşüncəsinə görə, ötən ildən etibarən Qərbin sanksiyaları və ABŞ-nin Ankaraya təzyiqləri səbəbindən Rusiya–Türkiyə münasibətlərində soyuqluq müşahidə olunur. Bu feyk iddianı irəli sürən Safrastyan bununla əsl məqsədini ortaya qoymuş olur. İctimai rəyə Azərbaycan–Türkiyə və Türkiyə–Rusiya münasibətlərinin getdikcə gərginləşdiyini sırımağa çalışan hay türkoloqun bu üsulla "bir güllə ilə iki dovşan vurmağı" hədəflədiyi şübhə doğurmur. Üstəlik, onu da xatırlatmağı unutmur ki, bu fonda "Azərbaycan sülh müqaviləsinin imzalanmasını hər vasitə ilə ləngidir, taktiki məsələləri həll etməyə və Ermənistandan daha çox güzəştlər qoparmağa çalışır".



Reallıqdan və sülh sazişinin mahiyyətindən tanmamilə uzaq fərziyyələrini üfürməkdə davam edən Safrastyan daha sonra şərhində Moskvanın da "bostanına daş atmağı" yaddan çıxarmır. O, sülh danışıqlarının yalnız Kremlin vasitəçiliyi ilə aparılacağı təqdirdə, Rusiyanın razılaşmadan razı qala biləcəyi kimi təxribatçı versiyanı irəli sürür. Fəqət, "hazırda bunun mümkün olmadığını nəzərə alsaq, Kreml sənədin tez bir zamanda imzalanmasında o qədər də maraqlı deyil" – deyə vurğulayan erməni türkoloq Moskvanın gələcəkdə vasitəçi kimi çıxış edə bilməsi üçün prosesi ləngitməkdə maraqlı olduğunu qeyd edir.

Ehtimal və gümanlar üzərində qurduğu saxta fərziyyələrinin coğrafiyasını genişləndirməyə girişən hay ekspert əlində Türkiyənin hətta Rusiya qazının idxalını azaltdığına dair məlumatların olduğunu bəyan edir. "Maliyyə cəhətdən Qərbdən asılı olan Türkiyə üçün daxili siyasi çətinliklər yarada biləcək iqtisadi problemləri yüngülləşdirmək üçün Rusiyaya deyil, Qərbə arxalanmağın sərfəli olduğunu" deyir. Bu zaman "beynəlxalq icmalçı" rolunda çıxış edən hay türkoloq yaranmış durumdan Rusiyanın ciddi narazılığını bildirdiyini, hətta Putinin Türkiyəyə səfərinin məhz bu səbəbdən ləngidiyini əsaslandırmağa çalışır.

Siyasi "interpretasiyaları" sərhəd tanımayan türkoloq Ruben Safrastyanın yalançı və avantürist hərəkətlərinə görə hər tərəfdən təklənmiş Hayastanın halına yanması başadüşüləndir. Amma onu düşdüyü labirintdən çıxarmaq üçün qonşuluqdakı müttəfiqlərin, dost ölkələrin arasını vurmaq ucuz diplomatiyadan başqa bir şey deyil. Bir də ki, artıq dünya bu məsələləri hay "arşını" ilə ölçmür...

**İ.HƏSƏNQALA**
**XQ**

# Yurdumuza payız gəlir

**Qızılı fəsil Azərbaycana sentyabrın 22-si saat 16:43:36-da daxil olacaq.**

Bakı Dövlət Universitetinin Astrofizika kafedrasından verilən məlumata görə, bu zaman payız gecə-gündüz bərabərliyi qeydə alınacaq.

Günəş ekliptika üzrə hərəkət edib ekvatoru kəsərək, Şimal yarımkürəsindən Cənub yarımkürəsinə keçəcək. Həmin andan Şimal yarımkürəsində payız, Cənub yarımkürəsində yaz fəsli başlayacaq.

Payız fəslinin uzunluğu 89 gün 20 saat 36 dəqiqə 54 saniyə olacaq.

**XQ**



# Ölkəmiz elektron hökumətə keçiddə öncül mövqedədir

*Azərbaycan BTM reytinqində ən yüksək göstəricisi olan dövlətlər qrupuna daxil olub*

**"Elektron hökumət" informasiya texnologiyalarından istifadə eməklə dövlət qurumları tərəfindən vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsinə imkan yaradır. İnkişaf etmiş ölkələrdə demokratiyanı daha da inkişaf etdirən amillərdən biri hesab olunan bu platformanın tətbiqi istiqamətində ölkəmizdə də mühüm işlər görülür.**




Məlumat üçün bildiririk ki, "Elektron hökumət" müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsinə şərait yaradır. Bu istiqamətdə yaradılan imkanların əsas məqsədi isə sosial xidmət təminatında dövlət qulluqçuları və vətəndaşlar arasında olan "məsafəni" azaltmaq, həmçinin bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır.

Bugünlərdə Azərbaycan nüfuzlu beynəlxalq reytinqdə bu sahədə tarixi göstəriciyə nail olub. Belə ki, BMT-nin Elektron Hökumətin İnkişaf İndeksi (EGDI) üzrə sentyabrın 17-də keçirilmiş mətbuat konfransı zamanı Azərbaycanın rəqəmsal hökumətin inkişafı istiqamətində mühüm irəliləyiş əldə etdiyi açıqlanıb. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyindən bildirilib ki, beynəlxalq hesabatda ölkəmiz 2022-ci illə müqayisədə bu il 9 pillə irəliləyərək 193 ölkə arasında 74-cü yerə yüksəlib.

Reytinqin yekun göstəricisində Azərbaycan 1 ballıq şkala üzrə 0.7607 bal toplayaraq tarixi göstəriciyə nail olub. Bununla da Azərbaycan ilk dəfə indeksin ən yüksək kateqoriyası hesab edilən "Very High EGDI" ölkələrin sırasına daxil olub.

Qeyd edək ki, BMT-nin Elektron Hökumətin İnkişaf İndeksi hər iki ildən bir açıqlanır. Hesabata ölkələrin rəqəmsal hökumətin inkişafı üzrə göstəriciləri daxildir. Bu il açıqlanan hesabatda yer alan göstəricilər isə 2023-cü ilin may ayına qədər olan vəziyyəti əks etdirir.

Agentliyin məlumatında bildirilib ki, Azərbaycan indeksin qiymətləndirmə meyarlarını əks etdirən onlayn dövlət xidmətləri və telekommunikasiya istiqamətlərinin hər biri üzrə irəliləyişə nail olub. Hesabatda, həmçinin qeyd edilib ki, ölkəmizin onlayn dövlət xidmətləri və telekommunikasiya infrastrukturu üzrə göstəricilərinin hər birində 21 faiz olmaqla artım qeydə alınıb. Azərbaycan ötən illərlə müqayisədə ilk dəfə olaraq Elektron İştirakçılıq İndeksində əhəmiyyətli irəliləyiş əldə edib. Bu indeks üzrə artım 28 faiz təşkil edib və ölkəmizin indeksdə 98-ci yerdən 88-ci yerə yüksəlməsini təmin edib.

Reytinqdə Azərbaycanın mövqeyinin güclənməsinə, xüsusilə son iki ildə Rəqəmsal İnkişaf Strategiyası istiqamətində görülən işlər, o cümlədən müvafiq dövlət qurumlarının koordinasiyalı fəaliyyəti, beynəlxalq ekspertlərlə təcrübə mübadiləsi nəticəsində ərsəyə gələn müxtəlif rəqəmsal hökumət həlləri, ölkə miqyasında həyata keçirilən "Onlayn Azərbaycan" layihəsi kimi təşəbbüslər ciddi töhfəsini verib.

BMT-nin Elektron Hökumətin İnkişaf İndeksinin İqtisadi və Sosial Əlaqələr Departamentinin Rəqəmsal Hökumət bölməsinin rəhbəri Vinçenzo Aquaro Azərbaycanın Mərkəzi Asiyada regionun göstəricilərini yüksəldən ölkələr qrupuna daxil olduğunu vurğulayıb. Qurumun hesabatında dəqiq göstəricilərin ətraflı qeyd olunduğunu diqqətə çatdıran bölmə rəhbəri ölkəmizdə rəqəmsal inkişaf baxımından güclü irəliləyişin olduğunu bildirib: "Həqiqətən də Azərbaycan regionun ümumi göstəricilərinin yaxşılaşdırılması, o cümlədən milli inkişaf baxımından çox böyük töhfə verən ölkələrdən biridir. Azərbaycan bu sahədə mükəmməl iş görən ölkələrdəndir".

Yeri gəlmişkən, ölkəmizdə "Elektron hökumət"in formalaşdırılması beynəlxalq təcrübəyə əsaslanır. Ölkə Prezidentinin "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010–2012-ci illər üçün Dövlət Proqramının ("Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında sərəncamı, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli fərmanı və digər normativ hüquqi aktlarla onun fəaliyyəti üçün hüquqi baza yaradılıb.

Dövlət başçısının 14 mart 2018-ci il tarixli "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" fərmanına əsasən, Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs yaradılıb. Qurum bu sahədə görülən işlərin əlaqələndiricisi olaraq "Elektron hökumət"in formalaşması üzrə digər dövlət orqanları ilə birgə müvafiq infrastrukturun yaradılması üzrə fəaliyyət həyata keçirir.

Bir neçə gün bundan əvvəl isə Azərbaycanda yenilənmiş "mygov" rəqəmsal hökumət platformasının təqdimatı keçirilib. Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov bildirib ki, yeni rəqəmsal hökumət platforması vətəndaşlara öz məlumatlarını idarə etmək imkanı yaradır. Onun sözlərinə görə, vətəndaşlar bir neçə kliklə öz şəxsi məlumatlarına daxil ola və yeniləyə, vacib bildirişləri izləyə və həyat hadisələri ilə bağlı bəzi prosesləri avtomatlaşdıra bilərlər. Nazir müavini, həmçinin deyib ki, 2026-cı ilin sonuna kimi ölkədə 1 milyon vətəndaşın rəqəmsal şəxsiyyət vəsiqələrindən istifadəsi nəzərdə tutulur.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin İdarə Heyətinin sədr müavini Şahin Əliyev isə "mygov" platformasına dair sual-cavab sessiyasında bildirib ki, gələcəkdə Azərbaycanda bütün rəqəmsal dövlət xidmətləri "mygov" üzərindən təqdim ediləcək. Buna isə zaman lazım olduğunu vurğulayan Ş.Əliyevin sözlərinə görə, hazırda müxtəlif dövlət qurumları ilə xidmətlərin daha əlçatan və rahat formada "mygov" üzərindən təqdim edilməsi ilə bağlı işlər görülür.

# Strateji valyuta ehtiyatlarımız 72,6 milyard dollara çatdı

**Azərbaycanın strateji valyuta ehtiyatları 8 ayda 6,1 faiz artaraq 72,6 milyard dollara çatdı.**



Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, tədiyə balansının cari əməliyyatlar hesabında bu ilin ilk 6 ayında 2,6 milyard dollar və ya ümumi daxili məhsulun 7,5 faizi səviyyəsində profisit olub. Cari hesabın başlıca komponenti olan xarici ticarət balansında 2024-cü ilin ötən 8 ayında 5,5 milyard dollar məbləğində müsbət saldo qeydə alınıb.

# Azərbaycan–Özbəkistan ticarət əlaqələri yeni mərhələdə

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) Özbəkistan Prezidentinin müşavirinin müavini, İqtisadi Araşdırmalar və İslahatlar Mərkəzinin direktoru Obid Hakimovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Tədbirdə Azərbaycan və Özbəkistan arasında ticarət dövriyyəsinin artırılması müzakirə edilib. Bu barədə XQ-yə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən məlumat verilib.**

Bildirilib ki, görüş zamanı İİTKM-in icraçı direktoru Vüsal Qasımlı Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri zamanı imzalanmış iki ölkə arasında müttəfiqlik münasibətləri haqqında müqavilə arasında 2021-ci ildə imzalanmış Memorandumu xatırladaraq həmin sənəd çərçivəsində son illər həyata keçirilmiş mühüm layihələri vurğulayıb.

O.Hakimov isə Azərbaycanın nail olduğu dinamik iqtisadi inkişafı yüksək qiymətləndirib, bu məqsədlə İİTKM ilə əməkdaşlığın vacibliyini və Özbəkistanın sosial-iqtisadi inkişafına dəstək verən təcrübələrin öyrənilməsində maraqlı olduqlarını qeyd edib. O, iki ölkə arasında ticarət, investisiya, strateji tərəfdaşlıq sahələrində əlaqələrin mühüm əhəmiyyət daşıdığını və ticarət dövriyyəsinin artırılması, qarşılıqlı investisiyaların təşviqi və iqtisadi inteqrasiyanın dərinləşdirilməsi ilə bağlı əməkdaşlığa hazır olduqlarını bildirib.



İlə əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu qeyd edib. Ötən il Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsinin həcminin 180 milyon ABŞ dollarına yaxın olduğunu, cari ilin ilk beş ayında isə həmin göstəricinin 70 milyon dollara çatdığını xatırladan icraçı direktor bu rəqəmləri daha da artırmaq, mövcud potensialı reallaşdırmaq üçün qarşılıqlı təmasların, müxtəlif formatlarda görüşlərin keçirilməsinin zəruriliyini vurğulayıb.

V. Qasımlı energetika sahəsində əməkdaşlıq, xüsusilə, Mərkəzi Asiyadan Avropaya elektrik enerjisinin ixracı bağlı qarşıda duran hədəflərdən söz açaraq bu istiqamətdə əsas prioritetləri diqqətə çatdırıb. O, həmçinin İİTKM ilə Özbəkistanın İqtisadi Tədqiqatlar və İslahatlar Mərkəzi

Sonda İİTKM-in proqram idarəetməsi modulları, o cümlədən "azranking.az", "Azexport", Rəqəmsal Ticarət Qovşağı (dth.az), "EnterpriseAzerbaijan" portalları barədə təqdimatlar keçirilb.

# 53 milyon manatdan çox güzəştli aqrar kredit



**Cari ilin yanvar–avqust aylarında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən ölkədə 8 min 123 kənd təsərrüfatı texnikasının satışı maliyyələşdirilib ki, bu da əvvəlki ilin müvafiq dövrünün göstəricini 60,7 faiz üstələyir.**

Aqrar Tədqiqatlar Mərkəzinin hesabatına görə, bu ilin 8 ayında kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən 2 min 865 fiziki və hüquqi şəxsə 53,5 milyon manat məbləğində güzəştli kredit verilib. Həmin vəsaitin 41,8 milyon manatı texnika və avadanlıq təyinatlı kreditlərin, 630 min manatı güzəştli kreditlərin, 10,8 milyon manatı isə mikrokreditlərin payına düşüb.



# Dəniz daşımalarının 80 faizi xarici yüklərdir

**Cari ilin yanvar–avqust aylarında Azərbaycanda dəniz nəqliyyatı ilə 5 milyon 643,7 min ton yük daşınıb. Bunun da 48,3 faizi neft yüklərinin payına düşüb.**

Hesabat dövründə ölkənin dəniz limanlarında 9 milyon 269 min ton yükləmə–boşaltma işləri həyata keçirilib. Ümumi yüklərin 7 milyon 421,9 min tonunu və ya 80,1 faizini tranzit yüklər təşkil edib. 2024-cü il sentyabr ayının 1-i vəziyyətinə limanlarda qalan yüklərin həcmi isə 409,1 min ton olub.

Bununla yanaşı, cari ilin 8 ayında dəniz nəqliyyatı ilə 18,7 min nəfər sərnişin daşınıb ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 20,6 faiz çoxdur.

# "AzərEnerji"də İtaliya səfiri ilə görüş

**"AzərEnerji" ASC-nin rəhbəri Baba Rzayevlə İtaliyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Luka di Canfrançeskonun görüşündə iki ölkənin enerji sistemləri arasındakı əməkdaşlıq münasibətləri, Prezident İlham Əliyevin bir müddət əvvəl İtaliyaya səfəri və bu səfərin energetika sektoruna verdiyi töhfələr barədə danışılıb.**



Söhbət zamanı İtaliyanın "Ansaldo Energia" və digər şirkətlərinin Azərbaycanın enerji sistemində həyata keçirdikləri layihələrdə iştirakı ilə bağlı fikir mübadiləsi aparılıb.

# Bu il qeyri-neft ixracı ölkəyə 2,2 milyard dollar qazanc gətirib

**Dövlət Gömrük Komitəsinin məlumatına görə, cari ilin yanvar–avqust aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2 milyard 180 milyon ABŞ dolları təşkil edib.**



Hesabat dövründə qeyri–neft sektoru üzrə ixrac olunan məhsullar sırasında meyvə-tərəvəz, kimya sənayesi məhsulları, plastmas, polietilen, polipropilen, alüminium və ondan hazırlanan məmulatlar və pambıq lifi yer alır.

Qeyd edək ki, hesabat dövründə qeyri–neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (752 milyon ABŞ dolları) birinci yerdə qərarlaşıb. Bu siyahıda Türkiyə (395 milyon ABŞ dolları) ikinci və Gürcüstan (158 milyon ABŞ dolları) üçüncü, ABŞ (109 milyon ABŞ dolları) isə dördüncü olub.

# İnformasiya və rabitə sektorunda artım

**Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin 8 ayında Azərbaycanda informasiya və rabitə sektorunda 1 milyard 428,9 milyon manatlıq (2023-cü ilin eyni dövrü ilə müqayisədə 13,1 faiz çox) məhsul istehsal edilib.**



Avqust ayında isə bu sektorda 190,3 milyon manatlıq məhsul buraxılıb ki, bu da ötən ilin eyni dövrünün göstəricisindən 9,4 faiz çoxdur. İnformasiya və rabitə sahələrinin ÜDM-də payı 1,8 faiz təşkil edib. Xatırladaq ki, cari ilin ötən 8 ayında respublikamızda 80 milyard 960,3 milyon manatlıq və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul istehsal olunub.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




# Azərbaycan qlobal enerji təşəbbüslərini fəal dəstəkləyir

(əvvəli 1-ci səhifədə)

Almaniyada 2030-cu ilə qədər elektrik enerjisi tədarükünün yarıdan çoxunun və bütün enerjinin təqribən üçdəbir hissəsinin məhz bərpaolunan enerji mənbələri hesabına təmin edilməsi planlaşdırılır. Ekspertlərin bu sahədə apardıqları təhlillər göstərir ki, qarşıya qoyulan məqsədə çatmaq üçün Almaniyada böyük potensial var”.

Qeyd edək ki, 4 il bundan əvvəl Almaniya hökuməti kömürdən istifadənin azaldılması, külək, günəş və bioqaz enerjisinin rolunun artırılması barədə qərar imzalayıb. Elə həmin dövrdə bu ölkədə istehsal edilən elektrik enerjisinin 51,2 faizi bərpaolunan mənbələrdən alınıb və bu, böyük göstərici kimi qiymətləndirilib.

Almaniyada elektrik stansiyalarının bir qisminin hələ də kömürlə işlədiyini vurğulayan ekspertlər bildirirlər ki, bu qazıntı yanacağının çıxarılması 2018-ci ilin sonunda dayandırılıb. Həmin vaxtdan daş kömür yalnız idxal edilib. Ölkə bazarına daş kömürün əsas təchizatçısı isə Rusiya olub, bütün idxalın təqribən yarısı bu dövlətin payına düşüb. Lakin Ukraynada aparılan müharibə səbəbindən Moskvanın Rusiya qazına görə ödənişin yalnız rubl ilə reallaşdırılması barədə tələbi “yaşıl” enerjiyə keçidin sürətləndirilməsi məsələsini daha da aktuallaşdırıb.

Ekspertlərin proqnozlarına əsasən, Almaniyanın elektrik energetikasında kömürlə işləyən elektrik stansiyaların payının azaldılması ilə əlaqədar çox ehtimal ki, daş kömür alınması getdikcə azalacaq və bu, qonur kömürə tələbatın aşağı düşməsinə gətirib çıxaracaq. Beləliklə, Almaniya elektrik energetikasında ən çirkli enerji daşıyıcısı kimi kömürdən istifadəyə 2038-ci ilə kimi son qoyacaq.



Bildirilir ki, Almaniyada 2023-cü ilin əvvəlindən etibarən, dizel yanacağı, benzin, mazut və təbii qazın yandırılması zamanı əmələ gələn karbon qazının hər tonuna görə 25 avro ödənilməsi qərara alınıb. Bu isə avtomobil yanacağının və mənzillərin qızdırılmasının bahalaşması ilə nəticələnib.

Almaniyada atmosferə karbon qazı tullantılarına görə, ödəniş tədricən artırılacaq və 2025-ci ilədək karbon qazının hər tonuna ödənişin məbləği 55 avroya çatdırılacaq. Bu da, öz növbəsində, elektrik avtomobillərindən istifadəyə keçid prosesini sürətləndirəcək.

Son illərdə ABŞ-də də “yaşıl” enerji layihəsinin həyata keçirilməsində mühüm nəticələr əldə edilib. Ölkənin energetika informasiya idarəsinin məlumatında 2020-ci ildə ABŞ-də ümumi enerji istehlakının, təqribən, 12,6 faizinin və istehsal edilən elektrik enerjisinin, təqribən, 19,8 faizinin bərpaolunan enerji mənbələrinin payına düşdüyü bildirilib.

2019-cu ildən bəri külək energetikası Birləşmiş Ştatlarda bərpaolunan elektrik enerjisinin ən iri istehsalçısıdır. 2020-ci ildə külək enerjisi sayəsində 338 teravat-saat elektrik enerjisi istehsal olunub. Bu, ölkədə elektrik enerjisi istehsalının ümumi həcminin 8,4 faizi və bərpaolunan mənbələrdən elektrik enerjisi istehsalının ümumi həcminin 43,2 faizi deməkdir. 2021-ci ilin oktyabr ayı üçün olan məlumata görə, ABŞ-də külək energetikasının sənədlərdə göstərilən gücü 130 meqavata yaxın olub.

ABŞ-də bərpaolunan elektrik enerjisinin ikinci ən böyük istehsalçısı hidroenergetikadır. Belə ki, 2020-ci ildə elektrik enerjisinin ümumi həcminin, təqribən, 7,3 faizi və bərpaolunan elektrik enerjisi istehsalının ümumi həcminin 36,4 faizi bu mənbə hesabına yaranıb. Birləşmiş Ştatlar dünyada hidroelektrik enerjisinin ən iri istehsalçıları arasında Çin, Kanada və Braziliyadan sonra dördüncü yeri tutur.

Alternativ mənbələrdən “yaşıl” enerji alınması ilə bağlı müsbət nəticələr əldə edilməsinin Almaniya və Birləşmiş Ştatlar nümunəsini Azərbaycan hər zaman dəstəkləyib və bu, ölkəmizdə sözügedən istiqamətdə həyata keçirilən genişmiqyaslı layihələrlə oz ifadəsini tapıb. Respublikamızda dünyanın ən irimiqyaslı tədbirlərindən biri hesab olunan COP29-un cari ilin noyabr ayında keçirilməsi qərarı elan ediləndən dərhal sonra “yaşıl enerji”nin inkişafı istiqamətində reallaşdırılan layihələrin icrası daha da sürətlənib. Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin bu barədə məlumatına diqqət yetirsək, qısa müddətdə görülən genişmiqyaslı işlər haqqında aydın təsəvvür yaranar. Məsələn, Naxçıvan Muxtar Respublikasında qısa bir dövr ərzində “Yaşıl enerji zonası”nın yaradılması istiqamətində külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal gücləri xarici investisiya hesabına yaradılıb və onun ən azı 1000 MVt-nın Türkiyə və Avropaya ixracı əsas hədəf kimi qarşıya qoyulub. Hazırda muxtar respublikada gücü 500 MVt-a qədər olan günəş elektrik stansiyasının tikintisi, eləcə də elektrik enerjisinin Türkiyəyə ixracı üçün ötürücü şəbəkənin qurulması imkanları araşdırılır.

Ümumiyyətlə, təkcə Naxçıvan deyil, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur da “yaşıl” enerji mənbələrinin yüksək potensialı ilə fərqlənir. Belə ki, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarında günəş enerjisi potensialı, Laçın və Kəlbəcər rayonlarında külək enerjisi potensialı yüksək qiymətləndirilir. BP şirkəti tərəfindən Cəbrayıl rayonu ərazisində 240 MVt gücündə “Şəfəq” Günəş Elektrik Stansiyası layihəsi həyata keçirilir. Bundan əlavə, “China Gezhouba Group Overseas Investment” və “Nobel Energy” şirkətləri ilə imzalanan müqavilələr çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda günəş elektrik stansiyalarının tikintisi nəzərdə tutulur.

# İtki və Zərərə Cavab Fondunun əməli fəaliyyəti gündəmdədir

**Bakıda iqlim dəyişikliyinin mənfi təsirlərinə xüsusi həssaslıqla yanaşan inkişaf etməkdə olan ölkələrə yardım məqsədilə yaradılmış İtki və Zərərə Cavab Fondu İdarə Heyətinin 3-cü iclası öz işinə başlayıb. Qeyd edək ki, fondun təsis edilməsi barədə qərar COP27-də qəbul olunsa da, qurum indiyədək əməli fəaliyyət göstərməyib.**



İtki və Zərərə Cavab Fondu İdarə Heyətinin sentyabrın 21-dək davam edəcək iclasında təşkilata Dünya Bankı sistemində maliyyə qurumu statusu verilməsi və tam əməli fəaliyyətə başlaması ilə bağlı tarixi əhəmiyyətli qərarların imzalanması gözlənilir.

Tədbirdə müxtəlif inkişaf səviyyəli ölkələr, BMT, Dünya Bankı, beynəlxalq qeyri-hökumət təşkilatları və həmfikir qruplardan, ümumilikdə, 200-ə yaxın nümayəndə iştirak edir. İclas zamanı fondun icraçı direktorunun təyin olunması nəzərdə tutulur. Toplantıda, həmçinin COP29 çərçivəsində dünya liderlərinin iqlim fəaliyyəti sammiti zamanı rəsmi başlanılması nəzərdə tutulan itki və zərər üzrə maliyyə mexanizmlərinə dair yüksək səviyyəli dialoq ilə bağlı vacib məqamlar müzakirə ediləcək.

İclasda çıxış edən COP29-un müəyyən edilmiş Prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev iqlim dəyişikliyi ilə mübarizədə qlobal həmrəyliyin vacibliyinə və səylərin artırılmasına, eləcə də fondun əməli fəaliyyətə başlamasının zəruriliyinə diqqət çəkib.

COP29 ərəfəsində Azərbaycanın bu tədbirə ev sahibliyi etməsi fondun əməli fəaliyyətinin reallaşması istiqamətində mühüm əhəmiyyət daşıyır. Eyni zamanda, bu, ölkəmizə olan inam və etimadın göstəricisi olmaqla yanaşı, respublikamızın iqlim dəyişmələri ilə mübarizə məsələlərinə verdiyi önəmin, eləcə də inkişaf etməkdə olan dövlətlərə, o cümlədən kiçik ada dövlətlərinə ayırdığı diqqətin nəticəsi kimi qiymətləndirilir.

# Neft şirkətinin “yaşıl” axtarışları

**Azərbaycan Dövlət Neft Şirkəti vitse-prezidentinin müavini Teymur Quliyev Bakıda keçirilən “Caspian Energy Forum”dakı çıxışında təmsil etdiyi qurumun emissiyaların azaldılmasının əlavə yollarını araşdırdığını bildirib.**

Onun sözlərinə görə, iki il əvvəl şirkətin təşəbbüsü ilə “yaşıl” enerjiyə keçidə başlanıb: “Dövlət Neft Şirkəti həmişə neft və qaz sahəsində ixtisaslaşmış enerji qurumu kimi tanınıb. Lakin bu gün enerji keçidinə doğru qlobal trend müşahidə olunur və bir çox aparıcı şirkətlər artıq davamlı enerjiyə böyük maraq göstərirlər. Dövlət Neft Şirkəti bu nümunələri nəzərdən keçirərək ötən COP28 konfransı ərəfəsində bu işlərə start verib”.




T.Quliyev qeyd edib ki, proses çətin olub, çünki ölkədə “yaşıl” enerji və dekarbonizasiya sahəsində mütəxəssislər çatışmayıb. Ona görə də şirkət bu vəzifəni həyata keçirmək üçün prosesi sürətləndirmək və qısa müddətdə müsbət nəticələr əldə etmək üçün beynəlxalq ekspertləriin iştirakını gerçəkləşdirib.

Dövlət Neft Şirkəti vitse-prezidentinin müavini bildirib ki, COP28-də təmsil etdiyi qurum ilk dəfə olaraq dekarbonizasiya hədəflərini ictimaiyyətə çatdırıb: “Əsas məqsəd 2050-ci ilə qədər sıfır xalis emissiyaya nail olmaqdır. Növbəti mərhələyə şirkətin hədəflərinin bölüşdürülməsi daxildir ki, bu çərçivədə “yaşıl” enerji layihələrinin həyata keçirilməsi ilə məşğul olan “SOCAR Green” şirkəti yaradılıb.

# Milli ekoloji standartımız yaradılır



**“Bakı KOB evi”ndə keçirilən “Korporativ idarəetmə, investisiyalar və korporativ sosial məsuliyyət” İşçi Qrupunun iclasında Azərbaycan Standartlaşdırma İnstitutunun ölkəmizin milli ekoloji standartını hazırlamağa başladığı barədə məlumat verilib.**

İclasda Qlobal İnnovasiya İndeksinin “Biznesin aparılması üçün şərait” və “Klasterlərin inkişafı” indikatorları üzrə sorğuların keçirilməsi və məlumatların yenilənməsi istiqamətində Dünya İqtisadi Forumu ilə əməkdaşlığın həyata keçirildiyi vurğulanıb.

Ölkəmizin milli ekoloji standartının qəbul edilməsi ekoloji, sosial və korporativ idarəetmə standartları ilə bağlı daha geniş tənzimləyici çərçivənin müəyyənləşdirilməsini nəzərdə tutur, milli ekoloji standartlar fəaliyyətin konkret istiqamətlər üzrə qurulmasına və gələcəkdə məqsədyönlü təşviq və stimullaşdırıcı tədbirlərin tətbiqinə imkan yaradacaq, eləcə də ölkəmizin “yaşıl” gündəliyinin həyata keçirilməsinə öz töhfəsini verəcək.

# COP29 zamanı Bakıda nəqliyyat problemi olmayacaq




**İqlim konfransına müxtəlif ölkələrdən minlərlə ziyarətçinin səfər edəcəyi nəzərə alınaraq COP29 Azərbaycan Əməliyyat Şirkəti, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi və Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin birgə optimallaşdırdığı nəqliyyat sxeminin tətbiqi üzrə işlər davam etdirilir.**

Əməliyyat Şirkətinin mətbuat ofisindən aldığımız məlumata əsasən, böyük ziyarətçi axınının səmərəli idarə edilməsi, eləcə də konfransın keçirildiyi günlərdə paytaxtda qonaqların və şəhər sakinlərinin rahat hərəkətinin təmin olunması məqsədilə icrası planlaşdırılan tədbirlər çərçivəsində Bakı şəhərinin bir sıra mərkəzi küçələrində xüsusi COP29 nəqliyyat zolaqlarının salınmasına başlanılıb. COP29 loqosunu əks etdirməklə işarələnən bu zolaqlar sürətli və fasiləsiz hərəkətin reallaşdırılması məqsədilə tədbir nəqliyyatı üçün ayrılıb.

Konfrans zamanı həmin zolaqlardan yalnız ictimai nəqliyyat vasitələri və tədbirlə əlaqədar xüsusi icazələri olan nəqliyyat vasitələri istifadə edəcək. Konfransa qədər isə müvafiq yol nişanları quraşdırılmayan zolaqlardan bütün nəqliyyat vasitələri istifadə edə bilər.

Bundan əlavə, konfrans zamanı şəhərin müxtəlif əsas hissələrində, ümumilikdə, 14 nəqliyyat qovşağının təşkili planlaşdırılıb. Eyni zamanda, Bakı Stadionunun, şəhər metro stansiyalarının xəritəsi, hotel, yaşayış komplekslərinin sıx yerləşdiyi ərazilər və digər amillər nəzərə alınaraq planlaşdırılan nəqliyyat qovşaqları şəbəkəsi müxtəlif marşrut və nəqliyyat sxemlərini özündə ehtiva edəcək.

Sxemlər barədə hərəkət iştirakçıları davamlı olaraq məlumatlandırılacaq. Belə ki, bu qovşaqların strateji yerləşməsi istər qonaqların, istərsə də şəhər sakinlərinin müxtəlif növ nəqliyyat vasitələrinə rahat və maneəsiz çıxışını və təyinat nöqtəsinə rahat çatmaları üçün sərf edilən zamanı minimallaşdıracaq. Təyin olunacaq əhatəli nəqliyyat marşrutları üzrə tədbir əməliyyatlarının səmərəli təşkili üçün yüzlərlə taksi və 400-ə yaxın avtobus, o cümlədən ekspres ictimai avtobuslar, xüsusi “konfrans avtobusları” və “hava limanı avtobusları”nın hərəkəti təşkil edilərək müntəzəm sərnişindaşıma xidməti icra olunacaq.

Nəqliyyat sxeminin tətbiqində əsas amillərdən biri də tədbirin keçiriləcəyi günlərdə vətəndaşların şəxsi avtomobillərindən istifadəni minimuma endirilməsi məqsədilə əlçatan və rahat alternativlərin gerçəkləşdirilməsidir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Üzeyir Musiqi Günü təntənələri

**1995-ci ildən başlayaraq, hər il sentyabrın 18-də ölkəmizdə Üzeyir Musiqi Günü təntənə ilə qeyd edilir. Milli musiqi bayramına çevrilmiş 18 sentyabrda ölkəmiz musiqili şənliklər məkanı olur. Bu əlamətdar gündə Azərbaycanda Üzeyir Hacıbəyli Beynəlxalq Festivalı da start götürür.**



Dünən səhər Fəxri xiyabana gələn tanınmış mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər əvvəlcə ümummilli lider, milli mədəniyyətimizin unudulmaz hamisi Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Fəxri xiyabanda Üzeyir Hacıbəylinin və digər görkəmli mədəniyyət və incəsənət xadimlərinin məzarları da ziyarət edildi. Milli musiqimizin banisinin məzarı önündə keçirilən mərasimdə mədəniyyət nazirinin müavini Murad Hüseynov dahi bəstəkarın zəngin yaradıcılığından, musiqi mədəniyyətimizin tarixindəki rolundan danışdı. O, Üzeyir Hacıbəylinin zəngin, çoxşaxəli irs yaratmış nadir sənətkar olduğunu qeyd etdi. Çıxış edən digər mədəniyyət xadimləri milli musiqimizin banisinin ölməz əsərlərindən söz açdılar. Diqqətə çatdırıldı ki, Üzeyir bəy tanınmış musiqiçi olmaqla yanaşı, həm də görkəmli ictimai xadim olub.

Bakı Musiqi Akademiyasının çevrəsi Üzeyir musiqisinin möhtəşəm sədalarına bürünmüşdü. Üzeyir Musiqi Günü münasibətilə akademiyanın qarşısında ənənəvi şənlik keçirilirdi. Təntənəli mərasimdə incəsənət xadimləri, ictimaiyyət nümayəndələri, musiqisevərlər iştirak edirdilər.

**Akademiyanın rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli Üzeyir Hacıbəyli Musiqi Gününün milli bayram kimi qeyd edilməsi ənənəsinin əsasını ümummilli lider Heydər Əliyevin qoyduğunu dedi:**

– Üzeyir Hacıbəylinin adını daşıyan akademiyamızın məzunları nəinki Azərbaycanda, bütün dünya ölkələrində uğurla çıxış edirlər. Bu, Üzeyir bəyin yaratdığı məktəbin uğurudur. Dahi bəstəkarın xatirəsi və irsi musiqi ictimaiyyətinin və qədirbilən insanların qəlbində daim yaşayacaq.

Mədəniyyət nazirinin müavini Murad Hüseynov isə xalqımızın musiqi mədəniyyətinin bünövrəsini qoymuş bəstəkarın həmişəyaşar sənət yolundan söz açdı:

– Yer üzündə elə bir ölkə yoxdur ki, orada Üzeyir bəyin musiqisi səslənməsin. Bizim musiqiçilər dünyanın müxtəlif səhnələrində uğurla çıxış edərək milli musiqimizi təbliğ edirlər.

Digər natiqlər də Üzeyir Hacıbəylinin Azərbaycan musiqisinin inkişafı və dünyaya tanıdılması istiqamətindəki əvəzsiz rolundan, ölkədə onun xatirəsinə həsr olunmuş Musiqi Günü keçirilməsi ənənələrindən danışdılar. Mədəniyyətimizin dünyada tanınması və təbliği istiqamətində Prezident İlham Əliyevin və Birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyətindən söz açdılar.

Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti, professor Siyavuş Kərimi XQ-yə bildirdi ki, keçirilən tədbirlər, Azərbaycan musiqisinə, o cümlədən Üzeyir bəyə olan hörmətin təzahürüdür. Xalq artisti bütün musiqiçiləri, bütövlükdə, Azərbaycan xalqını bu bayram münasibətilə təbrik etdi, mədəni dəyərlərimizin hər zaman yüksəkdə olmasını arzuladı.

**Xalq artisti, professor Yalçın Adıgözəlov Üzeyir Hacıbəylinin musiqimizin inkişafındakı xidmətlərinin misilsiz olduğunu dedi:**

– Bu gün hamımızın bayramıdır. Bu təntənənin təməlini Ulu öndərimiz qoyub. Biz musiqiçilər Üzeyir Hacıbəylinin işini davam etdiririk. Musiqi Akademiyası böyük sənətkarın ocağıdır.

Sonra Müdafiə Nazirliyinin Nümunəvi və Əlahiddə Hərbi Orkestrinin və Azərbaycan Dövlət Xor Kapellasının ifasında klassik musiqi nümunələri təqdim olundu.

Üzeyir Hacıbəyli Musiqi Günü təntənələri Azərbaycan Milli Konservatoriyasında davam etdi.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında isə Üzeyir Musiqi Günü münasibətlə virtual sərgi hazırlanmışdı. Kitabxananın fondlarındakı nəşrlər əsasında hazırlanan sərgidə Üzeyir Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" elmi işinin adaptasiya versiyası, "Koroğlu. Partitura" (5 pərdə), "Üzeyir Hacıbəylinin bədii dili", "Qara Qarayev tələbələrin xatirəsində", "Doğma elin haylayları" dərs vəsaiti, "Abdulla Şaiqin sözlərinə bəstələnmiş musiqi əsərləri", "Qüdsinin musiqi dünyası" fortepiano ilə oxumaq üçün romanslar, "Azərbaycan bəstəkarlarının əsərləri", "Azərbaycan xalq mahnıları", "Milli naxışlar" fortepiano üçün 10 konsert pyesi və digər dəyərli kitablar nümayiş olunurdu.

Bundan əlavə, Beynəlxalq Muğam və Beynəlxalq Qəbələ Musiqi festivallarından, eləcə də "Qarabağ xanəndələri" və "Gənc xanəndələr" adlı MP3 formatında olan albomlar və "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılışının videogörüntüləri virtual sərgidə yer almışdı.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

# Ev muzeyində dil açan eksponatlar

**Hər dəfə Üzeyir Hacıbəylinin ev-muzeyinə gələndə, sanki dahi bəstəkarın yaradıcılıq dünyasına səyahət edirik. Buraya üz tutan hər bir ziyarətçini, sözün əsl mənasında, qürur hissi bürüyür. Dahi bəstəkarın yaradıcılıq otağından başlanan ilk tanışlıq anındaca adamı sehirləyir.**

Otağın divarından asılmış və əqrəbləri 14.00-ı göstərən saat sanki Üzeyir bəyin həsrətini çəkir. Bəstəkarın bu dünya ilə vidalaşdığı vaxtdan bu saat da onun kimi "dünyadan küsüb". Üzeyir bəyin əli və nəfəsi dəyən hər bir eksponat musiqisevərlər üçün əzizdir. Onun istifadə etdiyi bütün dəyərli əşyaları burada etibarlı şəkildə qorunub saxlanır.

Dahi bəstəkarın yarımçıq qalmış "Azərbaycan" simfonik poemasının yerləşdiyi yaradıcılıq masasının səliqəsi olduğu kimi qalır. Öyrənirik ki, bu, bəstəkarın sonuncu işidir, cəmi 1 səhifəsini nota alıb. Diqqəti cəlb edən sənətkarın frakının – dirijor libasına baxanda Üzeyir bəyin möhtəşəmliyini bir daha hiss edirsən.



Muzeyin ekspozisiya şöbəsinin müdiri Vəfa Bağırzadə bizə digər otaqdakı masaüstü güzgünü göstərərək bildirdi ki, bu güzgü Xurşidbanu Natəvana məxsus olub. Onun nəticəsi Leyla Usmiyeva Üzeyir bəyin vəfatından sonra nənəsinə məxsus güzgünü və çinidən olan aş sinisini muzeyə hədiyyə edib.

Muzeydə qapalı şüşə vitrində saxlanılan sənəd – ovaxtkı SSRİ rəhbəri İosif Stalinin İkinci Dünya müharibəsindən sonra dahi bəstəkara ünvanlandığı minnətdarlıq teleqramı Üzeyir Hacıbəyli şəxsiyyətinə ali hörmətin nişanəsidir. Vəfa xanım dedi: "1944-cü ildə Üzeyir bəy cəbhəyə kömək məqsədilə öz şəxsi vəsaitindən 100 min rubl ayırıbmış ki, o pula bir tank alınsın. Ona görə də Stalin bəstəkarın bu addımını yüksək qiymətləndirib, ona şəxsən təşəkkür teleqramı göndərib".

Bu muzey vaxtilə qonaq-qaralı bir ev olub. Hər gün burada ən müxtəlif adamlar çörək kəsiblər. Hətta evdə qonaq olmayanda, Üzeyir bəy çox narahat olur, evdəkilərə deyirmiş ki, gedin, məhəllədən keçən nimdaş geyimli kimi görürsəniz, gətirin, qonağımız olsun. O, evinə təşrif buyuran yetimlərin, kasıb insanların qarnını doyurur, imkan dairəsində ciblərinə pul da qoyurmuş. O, tələbələrinə də ata qayğısı göstərirdi.

Belə bir deyim var: "Müxtəlif janrlarda şah əsərlər yaratmaq hünərdirsə, janrın özünü yaratmaq yüz qat hünərdir". Üzeyir Hacıbəyli nəinki müxtəlif janrlarda ən möhtəşəm əsərlər yaradıb, o, həm də milli musiqimizə tamamilə yeni nəfəs gətirib. Onun elmi-nəzəri məqalələri, "Azərbaycan xalq musiqisinin əsasları" monoqrafiyası milli musiqi elmimizin inkişafına qiymətli töhfədir.

Muzeyin divarlarından asılmış orijinal afişalar da ziyarətçilərə Üzeyir bəyin yaradıcılıq dünyasından xəbər verir. Onun "Ər və arvad", "O olmasın, bu olsun" və dünyanın 70 dilinə tərcümə edilən, 4 dəfə Azərbaycanda və 1 dəfə Amerikada ekranlaşdırılan "Arşın mal alan" operettasının orijinal tablosunun rəngi heç solmayıb. Muzeydə onu da öyrəndik ki, Üzeyir bəy 10 iri həcmli əsərindən cəmi birinin librettosunu özü yazmayıb. Bu "Koroğlu" operasıdır ki, sözləri dramaturq Heydər İsmayılova məxsusdur. Operadakı şeirlərin müəllifi isə Məmməd Səid Ordibadidir.

Bəstəkarın həyat yoldaşı Məleykə xanım Telequlova tatar qızı olub. İxtisasca rus dili müəllimi olan Məleykə xanım bir neçə il məktəb direktoru vəzifəsində çalışıb. Üzeyir bəyin vəfatından sonra 18 il yaşayan Məleykə xanım ona məxsus bütün əşyaları toplayaraq bir yerə yığıb. Bu gün onun sayəsində bəstəkarın adını daşıyan ev-muzeyində həmin əşyalar ən dəyərli nümunələr kimi ziyarətçilərə təqdim olunur. Muzeydə dahi bəstəkarın vəfatı zamanı çəkilmiş fotolar da ekspozisiyanın bir hissəsini təşkil edir. 1948-ci ildə vəfat edən Üzeyir Hacıbəylinin dəfnində görünməmiş izdiham yaşanıb. Şəkillərdən görünür ki, Mircəfər Bağırov bəstəkarın dəfnində şəxsən iştirak edib...

İnsanı duyğulandıran bu müqəddəs ocağı dolaşdıqca mənən saflaşırsan. Sanki saf əməlləri ilə xalqına başucalığı gətirən bir kişini, sənət fədaisini ziyarət emiş olursan. Anadan olmasının 139-cu ildönümünü qeyd etdiyimiz unudulmaz sənətkar mənsub olduğu millətin qəlbində ən uca zirvəni fəth edib. Yaradıcılığı ilə şəxsiyyəti bir-birini tamamlayan ölməz sənətkara olan sevgi tükənməzdir.

*Ceyhun ALIŞLI*
*XQ*

# Bəstəkarın sorağı dost diyarlardan gəlir

**Dahi Üzeyir bəyin musiqisi sərhəd tanımır. 18 sentyabr Üzeyir Musiqisi Günü münasibətilə xaricdə də bir sıra tədbirlər keçirilib.**

Tbilisi Dövlət Konservatoriyasında da Azərbaycan Milli Musiqi Günü qeyd olunub.

"Alyans Gənclər Mərkəzi"nin təşkil etdiyi gecədə Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşları, konservatoriyanın müəllim və tələbə heyəti, eləcə də alyansın üzvləri iştirak ediblər. Rektor Qeorqi Vaçinkadze Azərbaycan ilə Gürcüstan arasındakı mədəni əlaqələrdən danışıb, bu cür tədbirlərin təşkilini yüksək qiymətləndirib. Rektor Heydər Əliyev Fondu tərəfindən 6 görkəmli Azərbaycan bəstəkarının milli musiqi notlarından ibarət kitabların "Alyans Gənclər Mərkəzi"nin təşəbbüsü ilə Konservatoriyaya təqdim olunmasına görə təşəkkür edib.

Azərbaycanın Gürcüstandakı səfirliyinin məsul əməkdaşı Ramiz Hacızadə dahi bəstəkarımız Üzeyir Hacıbəylinin həyat və yaradıcılığı barədə məlumat verib. Bildirib ki, Azərbaycanın mədəniyyət beşiyi olan Şuşada dünyaya göz açan Üzeyir Hacıbəylinin doğum gününün və onun xatirəsini yaşadan Musiqi Gününün Tbilisidə qeyd olunması olduqca təqdirəlayiqdir. Bu, eyni zamanda, ölkələrimiz arasındakı münasibətlərin, xüsusən də mədəni əlaqələrin yüksək səviyyədə olduğunu bir daha sübut edir.



Ardınca azərbaycanlı tələbə Mahirə Durmuşova "Çırpınırdı Qara dəniz" və "Ay Laçın", Ramin Pirməmmədov isə tarda "Ayrılıq" və "Bakı gecələri" mahnılarını ifa ediblər.

Daha sonra "Alyans Gənclər Mərkəzi"nin sədri Leyla Əmrahova və başqaları ürək sözlərini söyləyiblər. Natiqlər Üzeyir Hacıbəylinin həyat və yaradıcılığı, Gürcüstanın mədəniyyət və incəsənət xadimlərinin onun haqqında dedikləri fikirlər, eləcə də Tbilisidə doğulmuş azərbaycanlı musiqiçilər barədə ətraflı məlumat veriblər.

Qeyd edək ki, Heydər Əliyev Fondu tərəfindən göndərilmiş kitablar konservatoriyanın kitabxanasına təqdim edilib.

*XQ*

**18 Sentyabr Üzeyir Musiqi Günüdür**

**Ruhunun işığı daima dünyamızı nurlandıran dahi şəxsiyyətin – Üzeyir Hacıbəylini yaxından tanıyan, onunla yaradıcılıq ünsiyyətində olan görkəmli adamların–elm və mədəniyyət xadimlərinin, eləcə də bəstəkarın tələbələrinin xatirələrindən onun əzəmətli obrazı boy göstərir. Üzeyir Musiqi Günü ilə əlaqədar həmin xatirələrin bir qismini təqdim edirik.**

# Xatirələrdən boy göstərən korifey



**Azərbaycan peşəkar vokal sənətinin banisi Bülbül:** "Məni bu böyük bəstəkarla Əbdürrəhim bəy Haqverdiyev tanış etmişdir. "Əsli və Kərəm" operasında Kərəm rolunda çıxışımın 2-ci günü öz iş otağında məni Üzeyir bəylə tanış etdi. Günlər keçdi, Üzeyir bəyin əsərlərinin qəhrəmanı oldum. Üzeyir bəylə mənim dostluğumun səbəbi onun əsərlərini oxumağım və operalarında baş qəhrəman rolunu oynamağım deyildir. Bizim dostluğumuzun əsası ideya birliyidir, Vətənimizə, xalqımıza olan məhəbbətimizin əks-sədasıdır".

**Yazıçı M.S.Ordubadi:** "Üzeyir ilə tanışlığımız ilk dəfə "Molla Nəsrəddin" məcmuəsi ilə başladı. Günlərin birində müştərək yazılmış bir məktub aldım. Məktub Əzimzadə, Üzeyir bəy, bir də o zamanın satiraçılarından birisi tərəfindən imzalanmışdı. O məktubda yazılmışdı: "Səid! Təəccüb edirik ki, nə üçün Ordubadda qapanıb qalmısan. Sən yığışıb Bakıya gəlsən, öz yazılarına çox geniş səhifələr tapa bilərsən, səninlə yaxından tanış olarıq..." Mən 20-ci ildə Bakıya gəldim. O zaman Bakı ziyalıları və yazıçıları ilə hələ tanış olmamışdım. Bir az sonra mərhum C.Cabbarlı ilə "Əxbar" qəzeti idarəsində tanış oldum. Üzeyiri görə bilməmişdim. Bir neçə gündən sonra məni "Əxbar" qəzetində müdir müavini təyin etdilər. Bu radələrdə Üzeyirlə 1-ci dəfə üz-üzə gəldim və tanış oldum. Bu görüş də yadımdadır, Üzeyir əlimi sıxdı və gülümsəyərək dedi: "Daha qorxma, ürəkli ol!..." Üzeyir bəyin əsas xüsusiyyətlərindən biri də sadə yaşayışı sevməkdən ibarət idi. Mən əvvəlcə, bir çox opera və operettalar müəllifi olan bu mahir bəstəkarın çox dəbdəbəli və təntənəli həyat keçirdiyini zənn edirdim. Amma "Koroğlu" operasını yazdığımız bir neçə ilin ərzində fikrimin yanlış olduğunu anladım".

**Bəstəkar Fikrət Əmirov öz xatirələrində qeyd edir:** "Dahi bəstəkar mənim fikrimdə elə ilk görüşümüzdən mehriban, qayğıkeş, təvazökar bir insan kimi qalmışdır. Bu unudulmaz görüşün səbəbkarı böyük müğənnimiz Bübül oldu. 1938-ci ildə Bülbül məni konservatoriyaya, bəstəkarın iş otağına aparıb təqdim etdi: "Üzeyir bəy Məşədi Cəmilin yadigarıdır, kompozitor olmaq istəyir". Üzeyir məni özünə xas təmkinlə, çox mehriban bir münasibətlə qarşıladı. O gündən başlayaraq, ömrünün axırına qədər ölməz sənətkarın hərarətli münasibətini duydum. Yeri gəlmişkən deyim ki, məni Üzeyir musiqisinin yetirməsi adlandıranlar var. Bu adla yalnız fəxr edirəm. Mən Üzeyir müəllimdən xalq musiqisinin paklığını mənimsəmişəm. Üzeyir musiqisini nə qədər dinləsəm, mənə elə gəlir ki, ilk dəfədir eşidirəm. Hər dəfə o mənə təzə görünür. Yaşa dolduqca dərk etmişəm ki, nə yaxşı, böyük sənətkarla durub-oturmaq səadəti mənə də nəsib olub, onun unudulmaz məsləhətlərini eşitmişəm..."

**Azərbaycanın ilk peşəkar qadın müğənnisi (lirik koloratur soprano) Şövkət Məmmədova:** "Onunla ilk görüşümü xatırlayarkən, Üzeyirin – öz xalqını sonsuz məhəbbətlə sevən və bütün həyatını ona həsr edən vətənpərvər insanın unudulmaz obrazı qarşısında bir daha baş əyirəm. Mənim Üzeyirlə qəlbimdə dərin iz salmış ilk görüşüm 1912-ci ildə olmuşdur. Bakıda olduğumdan xəbər tutub, o, məni aradı və taleyimdə yaxından iştirak etdi. Vəsait olmadığı üçün musiqi təhsilimi yarımçıq qoyduğumu eşidən kimi o, dərhal təklif etdi ki, tamaşa təşkil edib, toplanan pulla məni yenidən oxumağa göndərsinlər. Bu səmimi dəqiqələr uzun illər qəlbimdə kök saldı. Tale bizi bir daha görüşdürdü. Bakıdakı Qadınlar klubunda "Arşın mal alan"dakı Gülçöhrə rolunda ilk dəfə çıxış edən zaman yenidən Üzeyirlə görüşdüm. Burada mən ondan oyunum haqqında ilk xoş rəylər eşitdim. Onun səmimi tərifləri məni həvəsə gətirdi və gələcək fəaliyyətim üçün mənə böyük ruh verdi. Müəllimim, həssas və xeyirxah Üzeyirlə dostluğum bu andan başladı..."

**Azərbaycanın ilk qadın bəstəkarı, Üzeyir bəyin tələbəsi Ağabacı Rzayeva:** "Mənə müharibə illərində Üzeyir Hacıbəylinin sinfində oxumaq nəsib olmuşdur. Onun öz təhsil üsulu vardı: bizə, musiqi məktəbi və konservatoriyanın tələbələrinə həyatı dinləməyi, duymağı öyrədirdi. Üzeyir bəyin çox qiymətli bir xüsusiyyətini də qeyd etmək istərdim. O, bizim nəinki yaradıcılıq inkişafımıza nəzər yetirir, həmçinin həyatımızla, səhhətimizlə də maraqlanırdı. Sinfə girəndə hamını nəzərdən keçirir, bir narahatlıq hiss edən kimi, hökmən səbəbini soruşurdu. Müəllimimiz, dostumuz, gözəl insan çoxdandır ki, yoxdur. Ancaq onun xatirəsi qəlbimizdə daim yaşayır..."

**"Üzeyir müəllim olmasa idi, mən də olmazdım" – bunu xatirələrində xüsusi qeyd edən bəstəkar Şəfiqə Axundova yazıb:** "Bugünkü varlığımla, bugünkü müvəffəqiyyətlərimlə mən müəllimimə borcluyam. 1939-cu ildə Üzeyir müəllimin yanına gələrkən məktəbli qız idim, hec bir musiqi təhsilim yox idi. Onun konservatoriyada açdığı hazırlıq kursunda oxumağa başladım. Üzeyir müəllim çox mehriban, səmimi, qayğıkeş, böyük ürəkli bir insan idi...

Maddi vəziyyətimiz ağırlaşdığından ailəyə kömək etmək üçün 1943-cü ildə mən işə girməli idim. Bu barədə Üzeyir müəllimə müraciət etdim və o, məni M.F.Axundov adına Opera və Balet Teatrına suflyorluğa işə düzəltdi. 1944-cü ildə Üzeyir müəllimin himnini müəllifin göstərişi və təklifi ilə filarmoniyada hökumət baxışında ilk dəfə mən oxumuşam. Azərbaycan Himninin ilk ifaçısı olduğum üçün özümü xoşbəxt hesab edirəm. Müharibə illərində Üzeyir müəllim öz qonorarından mənimlə Ağabacı Rzayevaya maddi yardım kəsdirirdi.

**Milli Ensiklopediyanın texniki redaktoru Səlim Əhmədov Üzeyir bəy haqqında öz xatirələrində deyib:** "Üzeyir müəllim haqqında çox danışmaq olar. Olduqca mərd adam idi. Onun xatirəsi qəlbimizdə silinməzdir. Babamgilin mülklərində yaşayan Üzeyir bəyin böyük bacısının nəvəsi Kamal Paşayevlə yaxın dost idik. Üzeyir bəylə tanışlığım da bu dostluq nəticəsində yaranmışdı. Kamalla tez-tez onların evinə gedər, Üzeyir bəyin maraqlı söhbətlərinə qulaq asar, hətta onunla "Leyli və Məcnun"un, "Koroğlu"nun məşqlərinə də gedərdik. Üzeyir bəy bizə dəyərli məsləhətlər verirdi. Məni hər görəndə təhsilimi davam etdirməyi söyləyirdi. Heç yadımdan çıxmaz, Üzeyir bəyin dəfn günü Elmlər Akademiyasının əsas binası qarşısındakı insan selinin qarşısını almaq mümkün deyildi. Bütün Üzeyirsevərlər bu ölməz sənətkarı son mənzilə yola salırdı. Bülbülün yanıqlı səslə oxuduğu "Sənsiz" romansı isə o gündən Üzeyiri zəngin irsi, əvəzsiz sənət abidələri ilə birgə ölməzliyə qovuşdurdu..."

**Unudulmaz Xalq şairimiz Səməd Vurğunun qızı Aybəniz Vəkilova isə uşaq ikən Üzeyir bəylə görüşü barədə bunları deyib:** "Yusif, mən və Vaqif hələ kiçik idik. Bir gün Yessentukidə atam bizi Üzeyir bəy Hacıbəylinin görüşünə apardı. Bizə də bərk-bərk tapşırdı ki, yaxınlaşıb Üzeyir bəyin əlini öpərsiniz. Bəy kresloda əyləşmişdi. Biz atamın dediyi kimi, bir-bir dahi bəstəkarın əlini öpdük. Vaqif lap balaca olduğu üçün o, Üzeyir bəyin əlini öpəndə ölməz ustadımız onun başına sığal çəkdi. İndi, söz düşəndə Vaqifə deyirəm ki, Üzeyir bəy başına sığal çəkməklə sənə musiqi istedadı bəxş etdi. Görüş zamanı bizi heyrətləndirən bir məqam hələ də yadımızdadır. Atam o vaxtlar artıq tanınmış bir şair idi. Amma bütün söhbət boyu Üzeyir bəyin hüzurunda ayaq üstə dayandı, oturmadı. Bu, dahi sənətkara olan misilsiz hörmət və ehtiram əlaməti idi".

Bəli, 76 il əvvəl əbədiyyətə qovuşmuş dahi Üzeyir bəyin haqqında çoxlu belə gözəl xatirələr var. Bu gün təqdim etdiyimiz xatirələrin müəllifləri də artıq həyatda yoxdurlar. Doğru sözdür ki, dünyada təkcə xatirələr qalır. Üzeyir Musiqi Günündə onların yada salınması isə böyük mütəfəkkirin və onu sağlığında tanıyıb sevənlərin ruhunun şadlığı üçündür.

*Ə.DOSTƏLİ*
*XQ*

Beynəlxalq həyat

# "Peycer partlaması" "Hizbullah"ı iflic edəcəkmi?!



(əvvəli 1-ci səhifədə)

"Reuters" Livan təhlükəsizlik güclərindəki yüksək rütbəli mənbəyə istinadən yazır ki, "Mossad" bir müddət əvvəl "Hizbullah" tərəfindən sifariş edilmiş Tayvanın "Gold Apollo" şirkətinin 5 min peycerini minalayıb. Hər peycerə az miqdarda partlayıcı maddə qoyulub.

"Reuters"in məlumatına görə, peycerlərin bu dəsti 2024-cü ilin əvvəlində Livana gətirilib. "Əl-Cəzirə" telekanalının mənbəyi Livanın bir neçə bölgəsində "Hizbullah" yaraqlılarının istifadə etdiyi rabitə vasitələrinin partladığını təsdiqləyib. Livanın digər təhlükəsizlik mənbəsi isə iddia edir ki, "İsrail "Hizbullah"ın radio rabitə sistemini sındırıb və bu da partlayışlara səbəb olub". "Əl-Hadat"ın məlumatına görə, İsrail qabaqcıl texnologiyadan istifadə edərək uzaqdan rabitə vasitələrini partladıb. Lakin İsrail hələlik bu partlayışlara görə məsuliyyəti üzərinə götürməyib.

Bununla belə, CNN bildirir ki, Livanda peycerlərin partladılması əməliyyatının arxasında İsrail kəşfiyyatı və hərbçiləri dayanır. TV-nin məlumatına görə, partlayışlar "İsrail kəşfiyyatı və İsrail ordusunun birgə əməliyyatı" nəticəsində baş verib. Eyni zamanda, CNN hesab edir ki, görünməmiş hücum Yaxın Şərqdə gərginliyin daha da artmasına səbəb ola bilər. Artıq Livan rabitə vasitələrinin partlamasına görə İsrailin məsuliyyət daşıdığını açıqlayıb. "Hizbullah" da peycer partlayışına cavab verəcəyini vəd edib. İsrail də Müdafiə Qüvvələrinin elitalarından sayılan və tərkibində komando və paraşütçü briqadaları olan 98-ci diviziyanı Livanın şimal sərhədinə yaxınlaşdırıb. Tel-Əviv hər ehtimala qarşı Livan qruplaşmasının mümkün hücumuna hazırlaşır.

İsrailin adı açıqlanmayan sabiq rəsmisi "Walla" portalına bildirib ki, qurğuların partladılmasında məqsəd genişmiqyaslı hərbi əməliyyatlar zamanı "Hizbullah"ı müvəqqəti iflic vəziyyətə salmaq və İsrailə üstünlük qazandırmaqdan ibarət olub. Ancaq son günlər Livan qruplaşmasının əməliyyatdan xəbərdar olacağından ehtiyat edən İsrail rəhbərliyi təcili məsləhətləşmələr aparıb və əməliyyatı həyata keçirmək qərarına gəlib. Bundan başqa, peycerlər rabitə vasitəsi kimi xidmət edirdi və İsrailin məqsədlərindən birinin də "Hizbullah"ın kommunikasiyalarını iflic etmək olduğu istisna edilmir.

Livan hökumətinin UNIFIL qüvvələri ilə keçmiş koordinatoru və hərbi məhkəmənin sabiq rəhbəri, briqada generalı Munir Şəhadə "Əl-Nəşrə" qəzetinə verdiyi müsahibədə "Hizbullah"dan peycer partlayışlarına yaxın günlərdə tez cavab gözlədiyini söyləyib. O, İsrailin ona ciddi cavab verməkdən başqa çarə qoymadığını vurğulayıb. M.Şəhadə xəbərdarlıq edib ki, belə bir reaksiya bölgədə əhəmiyyətli dərəcədə eskalasiya qorxusunu artıraraq genişmiqyaslı müharibəyə səbəb ola bilər.

Politoloq, siyasi elmlər doktoru, beynəlxalq münasibətlər və milli təhlükəsizlik üzrə ekspert Simon Tsipis mətbuata açıqlamasında bildirib ki, xüsusi xidmətlərin peycerlərlə işləməsi üç mərhələdən ibarət olub: haker hücumu, mobil şəbəkə şifrələməsinin uzaqdan sındırılması və minlərlə peycerə partlayış siqnalının göndərilməsi. S.Tsipis deyir ki, SMS mesajlaşma avadanlığı – peycerlər yalnız "Hizbullah" yaraqlıları tərəfindən radio kimi istifadə edilib. Şəbəkəni sındıran İsrail kəşfiyyat xidmətləri bu şəbəkəyə qoşulan hər kəsi müəyyənləşdirməyi bacarıb. Mülki əhalinin zərər görməməsi üçün müəyyən saatda peycerlərə mesaj göndərilib və "Hizbullah"ın üzvləri mesajı oxuyanda partlayış olub.

*S.ELAY*
*XQ*

# Səudiyyə şirkəti COP29-a mühüm töhfə verəcək

## *Dost ölkənin Milli Günü ərəfəsində yeni faktların şahidi oluruq*

**Bir neçə gündən sonra bütün problemli günlərimizdə və sevincli anlarımızda – daim yanımızda olan Səudiyyə Ərəbistanı Krallığı özünün Milli Gününü (Krallığın yarandığı gün) 94-cü dəfə qeyd edəcək. Məmnuniyyətlə xatırladırıq ki, son 20– 25 ildə bu ölkə haqqında danışarkən, ilk növbədə, Ər–Riyadın Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Ermənistanla diplomatik münasibətlər qurmadığını, Qərbi Azərbaycan, Qarabağ və Şərqi Zəngəzurdan qaçqın və məcburi köçkün düşmüş soydaşlarımıza qardaşlıq yardımı göstərilməsini, "Əsrin müqaviləsi"ndə Səudiyyə şirkətinin də iştirak etdiyini, ölkəmizdə reallaşdırılan bir çox infrastruktur layihələrinin (Vəlvələçay, Taxta-körpü layihələri və s.) icrasında səudiyyəli tərəfdaşlarımızın da yaxından iştirakını gözlərimiz önünə gətirdik.**

Son illərdə isə, daha doğrusu, Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsindən sonrakı əməkdaşlığımızın yeni istiqamətləri yaranır. Nəticədə, bu gün Azərbaycanın ən böyük layihəsi olan "Yaşıl enerji" siyasətinin reallaşdırılmasında Səudiyyə şirkətləri yaxından iştirak edirlər.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev ötən il oktyabrın 5-də Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteylinin etimadnaməsini qəbul edərkən Bakı ilə Ər-Riyadın çoxşaxəli əməkdaşlığının tarixçəsini növbəti dəfə yada salaraq qürurverici faktlardan söz açmışdır. Ölkələrimiz arasında qardaşlıq əlaqələrinin və ölkə rəhbərlərinin dostluq münasibətlərinin olduğunu qeyd edən Prezident İlham Əliyev bütün dövrlərdə – həm işğal zamanı, həm də torpaqlarımızın işğaldan azad olunmasından sonrakı dövrdə Azərbaycanın ərazi bütövlüyünün qorunması və bərpası məsələlərində Səudiyyə Ərəbistanı Krallığının birmənalı şəkildə göstərdiyi mənəvi və siyasi dəstəyi bir daha yüksək qiymətləndirmişdir. Dövlət başçımız eləcə də, beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birinə qarşılıqlı dəstəyinin ənənəvi xarakter aldığını məmnunluqla qeyd etmişdir.

Xüsusilə xatırladılmalı məqamlardan biri də odur ki, dövlət başçımız Səudiyyə Ərəbistanı şirkətinin enerji sahəsində Azərbaycana böyük sərmayə qoymasını tez-tez və səmimiyyətlə xatırladır.

Yeri gəlmişkən, cənab Prezident bu il sentyabrın 6-da İtaliyaya səfəri çərçivəsində – Çernobbio şəhərində Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri, Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında hökumətlərarası müştərək komissiyanın həmsədri Xalid bin Əbdüləziz Əl-Falihlə görüşündə də əməkdaşlığımızın yeni sahələrindəki uğurları məmnunluqla yada salmışdır.



Dövlət başçımızın nazirlə söhbəti zamanı iki ölkə arasında – xüsusilə enerji sektorunda əməkdaşlıq məsələləri, o cümlədən Səudiyyə Ərəbistanı Krallığının "Acwa Power" şirkətinin fəaliyyəti müzakirə olunmuş, Azərbaycanda və regionda ən böyük külək enerjisi stansiyasının tikintisinin davam etdirildiyi, gələn ilin sonunda həmin stansiyanın istifadəyə veriləcəyi bildirilmişdi. Xatırladaq ki, "Acwa Power" şirkəti ilə Azərbaycanın Energetika Nazirliyi arasında ölkəmizdə ilk dəfə 200 MVa saxlama gücləri̇nin yaradılması ilə bağlı razılaşmaya uyğun olaraq birgə fəaliyyət həyata keçirilir. Digər xoş xəbər isə bu işlərin COP29-dək başa çatdırılmasının nəzərdə tutulmasıdır. Yəni Səudiyyə şirkəti müstəqil Azərbaycanın evsahibliyi edəcəyi ən böyük beynəlxalq tədbirə özünəməxsus töhfə verəcək.

Onu da əlavə edək ki, Çernobbioda xatırladılmışdır ki, "Acwa Power" şirkətinin Azərbaycandan Avropaya yaşıl enerjinin ixracı sahəsində əməkdaşlıqda maraqlıdır. Bununla bağlı Azərbaycanın Energetika Nazirliyi və "Acwa Power"in Xəzər dənizində külək enerjisi layihələri üzərində iş apardıqları qeyd edilmiş, bunun da növbəti mərhələdə yaşıl enerjinin ixracı üçün mənbə rolu oynayacağı vurğulandı.

Yəni yüz illər boyu davam edən Azərbaycan – Səudiyyə Ərəbistanı əməkdaşlığı müasir dövrün tələblərinə cavab olaraq çoxşaxəli variant alır və gənc müstəqil dövlətimizin daha da qüdrətləndirilməsinə yaradılan stimulun tərkib hissələrindən birinə çevrilir.

*İttifaq MİRZƏBƏYLİ*

Region xəbərləri



# Naxçıvan: Səlahiyyətli nümayəndə sahibkarlarla görüşüb

**Sentyabrın 16-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüş keçirib.**

Səlahiyyətli nümayəndə sahibkarlarla 2023-cü il 9 fevral tarixli görüşü xatırladaraq qeyd edib ki, məhz həmin görüşdə səsləndirilən təkliflər əsasında "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" hazırlanıb. Dövlət Proqramında logistikanın subsidiyalaşdırılması da Naxçıvanda həyata keçiriləcək iqtisadi islahatların tərkib hissəsi kimi nəzərdə tutulub. Bu istiqamətdə ötən dövrdə Azərbaycanda fəaliyyət göstərən beynəlxalq konsaltinq şirkəti ilə müəyyən məsləhətləşmələr aparılıb.

Naxçıvanda gələcəkdə rəqabətədavamlı və ixracyönümlü məhsul istehsalı üçün xüsusi gömrük, vergi güzəştlərinin tətbiq olunacağını diqqətə çatdıran Fuad Nəcəfli istehsal prosesində innovativ texnologiyalardan istifadənin, kadr potensialının gücləndirilməsinin, sənədləşmənin qanunvericiliyə uyğun aparılmasının, tenderlərdə fəal iştirakın vacibliyini vurğulayıb. Bildirilib ki, digər sahələr kimi sahibkarlıqda da kadr hazırlığı mühüm məsələdir. Kadrların formalaşdırılması, inkişafı üçün yeni yaradılan "Naxçıvan Təlim Mərkəzi" publik hüquqi şəxsin imkanlarından istifadə olunmalıdır.

Görüşdə Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Abbas İsmayılov sahibkarların kredit, ixrac-idxal imkanları, Naxçıvan Baş Gömrük İdarəsinin rəisi Vüqar Əliyev qanunvericiliyə uyğun gömrük prosedurları barədə məlumat veriblər.

Sonda sahibkarları maraqlandıran suallar cavablandırılıb, irəli sürülən təkliflər üzrə müzakirələr aparılıb.

*Səbuhi HƏSƏNOV,*
*XQ-nin Naxçıvan müxbiri*

# Gəncə: "Türk dünyasının Azərbaycan və Özbəkistan modeli"

**Gəncədə bu mövzuda keçirilən beynəlxalq elmi-praktik konfrans Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Azərbaycan Milli Elmlər Akademiyası, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun, Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universitetinin və AMEA Gəncə Bölməsinin təşkilatçılığı ilə keçirilib.**



Beynəlxalq elmi-praktik konfransda Azərbaycan–Özbəkistan qardaşlığı və dostluğundan geniş söz açılıb. İki ölkə arasında münasibətlərin, güclənən strateji tərəfdaşlığın Türk dünyası birliyinə töhfə olduğu diqqətə çatdırılıb. Həmçinin ədəbi-mədəni əlaqələrin tarixi və müasir dövrünə nəzər salınıb.

Özbəkistanda dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərinin özbək dilində çap olunması, onun ardıcıllarından olan böyük özbək şairi Əlişir Nəvainin əsərlərinin Azərbaycanda tərcümə edilərək geniş oxucu kütləsinə çatdırılması hər iki ölkənin mədəni həyatında mühüm hadisə adlandırılıb.

Konfrans iştirakçıları Gəncə şəhərinin tarixi abidələri ilə də tanış olublar.

Bununla yanaşı, AMEA Gəncə Bölməsində Əlişir Nəvai adına Özbək dili və Mədəniyyəti Mərkəzi açılıb. Mərkəzdə Azərbaycan və Özbəkistan xalqlarının qardaşlıq əlaqələrini əks etdirən guşələr, eksponatlar, Nizami Gəncəvi və Əlişir Nəvai yaradıcılığına aid nəşrlər təqdim olunub.

# Şəmkirdə kartof rekordu: 189 min ton!

**Şəmkirdə kartof yığımı yekunlaşmaq üzrədir. Məhsul istehsalçıları bu günədək əkdikləri 6 min 598 hektar kartof sahəsinin 99,8 faizinin məhsulunu toplayıblar.**



Nümunəvi qulluq göstərildiyindən sahələrdə bol məhsul yetişib. Fermerlər qısa müddətdə 6583 hektar sahədən 189 min ton kartof toplayıblar. Hər hektardan 286,5 sentner məhsul əldə olunub.

Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev kartof əkən fermerlərlə görüşüb, məhsul yığımının nəticələri ilə maraqlanıb.

Başçıya bildirilib ki, bu il hər hektardan toplanan məhsul nəzərdə tutulandan artıqdır, məhsuldarlıq yüksək səviyyədədir. Onlar növbəti ilə əkin sahələrini daha da genişləndirməyi planlaşdırırlar.

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 204 (30608) 19 sentyabr 2024-cü il, cümə axşamı

# Dəmiryol Səyyar Klinikası Qəbələdə



**Səhiyyə Nazirliyi və Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin birgə təşəbbüsü ilə Dəmiryol Səyyar Klinikası Qəbələ rayon sakinlərinə dəmiryol vağzalında tibbi xidmət göstərir.**

Tibbi aksiyanın keçirilməsində məqsəd sakinlərin göz xəstəlikləri ilə bağlı problemlərinin aşkar edilməsi və həll olunmasına kömək göstərməkdir. Aksiyadakı müayinələr əsasında göz problemləri ilə bağlı ümumi nəticə hasil olunur, müəyyən olunan xəstəliklərin müzakirəsi təşkil edilir və buna əsasən lazımi tədbirlər görülür. Ciddi göz xəstəliyi ilə üzləşən və çətin əməliyyat tələb olunan pasiyentlərin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə gəlmələrinə şərait yaradılır.




Qeyd edək ki, Səyyar Klinika bu gün də Qəbələnin Dəmiryol Vağzalında vətəndaşlara təmənnasız xidmət göstərəcək.

Xatırladaq ki, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi tərəfindən respublika rayonlarının əhalisinə təmənnasız oftalmoloji, həmçinin cərrahi xidmət göstərmək üçün 2005-ci ildə müasir diaqnostik və cərrahi avadanlıqla təchiz olunmuş Səyyar Klinika təşkil edilib. Səyyar Klinikanın fəaliyyətini daha da genişləndirmək üçün 2018-ci ildən isə Dəmiryol Səyyar Klinikası da fəaliyyətə başlayıb.

*XQ*

# Leysan: tut ucundan göyə çıx...

## *Bəzi bölgələrdə güclü yağış gözlənilir*

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, axşam bəzi şəhərətrafı ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var.

Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 16-19° isti, gündüz 22-26° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 764 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 40-45 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 14-19° isti, gündüz 23-27° isti, dağlarda gecə 5-9° isti, gündüz 10-15° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

*Qardaş elləri gəzərkən*

# Çırpınırdı Qara dəniz...



## Yaşılla mavinin qovuşduğu bir məkan

**Burada Günəş dənizdən yuyunub çıxır. Bəlkə buna görə daha parlaq və təmiz görünür. Qara dənizlə Giresun şəhəri qucaqlaşan sevgililər kimidir. Zəngin tarixi olan Giresun qədim İpək yolunun üstündə qərar tutub. Günəş batanda şəhər mahir rəssamın fırçası ilə çəkilmiş tabloya bənzəyir. Qədim qaladan qızılı şəfəqlərin aydınlatdığı Giresuna baxdıqca doymaq olmur.**

Dənizlə yamyaşıl dağları kəmər kimi bir-birinə bağlayan və sahil boyu yüz kilometrlərlə uzanan rahat avtomobil yolu şəhərin ətəyindən keçib Orduya, Samsuna, paytaxt Ankaraya, şəhərlər sultanı, sultanlar şəhəri İstanbula doğru gedir. Şəhərin arxitekturası müxtəlif əsrlərin yaddaşı kimidir. Lakin gözəlliyi ilə seçilən camelər türk memarlığının incəliklərini özündə yaşadır və baxanları heyran edir. Havası ürək rahatlayan, gözəlliyi göz qamaşdıran şəhərin ən uca zirvəsi Giresun qalasıdır. Əlavə edək ki, neçə-neçə döyüşlərlə bağlı türklərin qəhrəmanlığını yaddaşında yaşadan belə qalalar Qara dəniz sahillərində çoxdur. Giresun qalasından baxanda sahilləri üfüqdə qara xətt kimi birləşən Qara dənizin böyüklüyü adamı heyrətə



gətirir. Şəhər dağlara doğru qalxdıqca sanki yaşıllıqlar qoynunda əriyir. Təkəmseyrək müasir uca binalar elə bil meşənin qoynundan üzü aşağı boylanır. Bir-biri ilə ətək tutan dağların arası ilə arabir duman sürünüb gedir.

### Burada çox şey dünəni xatırladır

Giresunun emblemində altı element var: dağ, dəniz, qala, gilas, fındıq və balıq. Dünyanın dörd bir yanına fındıq yüklü gəmilər buradan yola çıxır. Çünki dünyada fındıq istehsalının 73 faizini verən Türkiyənin əsas fındıqçılıq mərkəzi Giresundur. Bu torpaqda gilas da çox yetişdiyindən Giresun öz adını yabanı gilas sortu olan "kiraz" sözündən alıb. Türklər deyirlər ki, gilas bütün dünyaya buradan yayılıb.

Giresun torpağında çoxsaylı bulaqlar həyat nəğməsi oxuyur, sular şəlalələr kimi axıb dənizə qovuşur. Dərələr boyunca millənən buz kimi dumduru çayların üstündəki qədim körpülər sanki bu yurdun dünənini sabaha bağlamaq üçün möhkəm dayanıblar. Sərin yaylaqlar isə insana dərdini unutduracaq qədər gözəl, gəzməli, görməlidir. Giresun dağlarının ən uca nöqtəsi Abdal Musa zirvəsi olub, 3 min 331 metr təşkil edir. Özəlliyi və gözəlliyi ilə dünyada məşhur olan Quşköy də Giresun torpağında yerləşir. Bu kəndin insanları, belə demək olarsa, quşlar kimi azad yaşayır, quş dilində danışırlar. Maraqlıdır ki, insanlar burada evləri uzaq olduğundan arzu və istəklərini, qəttəzə xəbərləri bir-birlərinə telefonla deyil, fit çalmaqla çatdırırlar... Təbii gözəlliklərinə və müasir nümunəvi istirahət məkanlarına görə Giresun hazırda Türkiyənin əsas turizm məkanları sırasındadır.

Məlumat üçün deyək ki, Giresunu şərqdə Trabzon və Gümüsxanə, cənubi-şərqdə Ərzincan, şimal və şimali-qərbdə Sivas, qərbdə Ordu elləri, şimalda isə Qaradəniz əhatə edir. Ərazisi 6 min 934 kvadratmetrdir və Türkiyə torpağının 0,89 faizini təşkil edir. Giresun çox uzaq məmləkət deyil. Qara dəniz sahillərinin ölçüyəgəlməz gözəlliklərini görmək, qumlu sahillərdə və sərin meşəliklərdə "oxay" deyib bu dünyanın ağrı-acılarını unutmaq istəyirsinizsə, imkan olan kimi, avtobusla səyahətə və dincəlməyə Giresuna yollanın (Bu, deyəsən, lap reklam oldu).

### O səhər hər kvadratmetrə 80 litr yağış düşmüşdü

Şəhər alatoranda güclü yaz yağışı ilə yuyunmuş, dağların sinəsindən axıb gələn sel suları Giresunun küçələrində gölməçələr yaratmış, binaların birinci mərtəbələrinə dolmuş, nəqliyyatın hərəkətini, demək olar ki, iflic etmişdi. Sübh tezdən mərkəzi meydana yığılan taksilər su üzərində sanki qayıq kimi görünürdülər. Dükan və kafe sahibləri qəfil düşən leysanın doğurduğu fəsadlarla mübarizə aparırdılar. Amma küçələrin çoxu üzü yoxuşa olduğundan o yerlər elə bil əllə yuyulmuşdu. Səhəri gün "Giresun elləri" qəzetinin yazdığına görə, bir neçə saat ərzində bu bölgənin hər kvadratmetrinə 80 litr yağış düşmüşdü.

Günəş doğan kimi hər yan par-par parıldayırdı. Otelin pəncərəsindən ilk dəfə gördüyüm yaşılla mavinin qovuşduğu Giresun şəhərini maraqla seyr edirdim. Yaxınlıqdakı meydanda böyük Atatürk yenə bir əlini uzaqlara uzadaraq sanki xalqı düşmənə qarşı mübarizəyə səsləyirdi. Ondan bir qədər aralı Türkiyəni qələbələrdən qələbələrə aparan, şəhidlərin qanı ilə yuyulan uca Türk bayrağı dalğalanırdı. Yadıma Türkiyəni öz vətəni bilib, onun azadlığı uğrunda mübarizə aparan, türk əsgərinin şücaətinə şərqilər yazan Əhməd Cavadın 1914-cü ilin dekabrında qələmə aldığı məşhur "Çırpınırdı Qara dəniz" şeiri düşdü:

***Çırpınırdı Qara dəniz***
***Baxıb Türkün bayrağına!***
***"Ah!" deyərdim, heç ölməzdim***
***Düşə bilsəm ayağına...***
***Dost elindən əsən yellər,***
***Mənə şeir, salam söylər.***
***Olsun Turan bütün ellər!***
***Qurban Türkün bayrağına!***
***Yol ver Türkün bayrağına!***

**(ardı var)**

*Səməd MƏLİKZADƏ*

**Bakı–Giresun–Bakı**



# Canlı qida – göyərtilər can dərmanıdır

**Göyərtilərin insan sağlamlığındakı rolu hər kəsə məlumdur. Amma onların toxumunun da bir o qədər faydalı olduğunu çoxları bilmir. Keşniş toxumunun 7 faydası barədə mütəxəssislər Rusiya mətbuatına açıqlama veriblər. Açıqlamada bildirilib ki, keşniş toxumu...**

– Göz sağlamlığına olduqca faydalıdır. Tərkibindəki A vitamini ilə görmə zəifliyinin qarşısını alır;

– B vitamini sayəsində sinir sisteminə dəstək verir. Yuxusuzluq, yorğunluq və stress kimi narahatlıqları azaldır;

– Ürəktutma və iflic kimi riskli xəstəliklərin yaranmasını azaltmağa kömək edir. Eyni zamanda xolesterol səviyyəsini də tarazlaşdırır;

– İmmunitet sistemini gücləndirir. Antibakterial xüsusiyyəti sayəsində bədəni infeksiyalara qarşı qoruyur;

– Ağız qoxusunu aparır və ağızda yaranan yaralara infeksiya düşməsini əngəlləyir;

– Kalsium baxımından zəngin olan keşniş toxumu sümüklərin uzun illər boyu sağlam və güclü qalmasını saxlayır;

– Tərkibində olan uçucu yağ turşusu sayəsində dəri problemlərinin daha sürətli sağalmasını təmin edir.

*Z.HÜSEYNLİ*
*XQ*

# Yeni "Wi-Fi" rekordu

**Avstraliyanın "Morse Micro" şirkəti "Wi-Fi" texnologiyasında "HaLow" standartı ilə 15.9 kilometr simsiz əlaqə yaratmaqla yeni dünya rekorduna imza atıb. Şirkətin həyata keçirdiyi yeni sınaqda bağlantı saniyədə 2 meqabit sürətlə təmin edilib.**



Bu ilin yanvarında şirkət San-Fransiskoda "Wi-Fi" texnologiyası ilə 2.9 kilometr bağlantı yarada bilmişdi. Yeni rekord əvvəlki məsafədən 5 dəfədən də çoxdur. Bu nəticə "HaLow" texnologiyasının maksimum diapazonu hesab edilir.

"HaLow" texnologiyası, xüsusilə kənd yerlərində və əkinçilik kimi açıq tətbiqlərdə böyük potensial vəd edir, geniş ərazilərdə əlverişli internetə çıxış təmin edə bilər. İT və texnologiya ekspertləri bildirirlər ki, "HaLow" şəhərlərdə və qapalı məkanlarda məhdud faydalı ola bilər.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Aybəniz Novruzova ailəsi ilə birlikdə Ramiz Zeynalova və Qoşqar Zeynalova əzizləri

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29**
**Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com**
**Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS** 0282
**TİRAJ** 3936
**SİFARİŞ** 2119
**QİYMƏTİ** 60 qəpik

**Növbətçi redaktor**
**Səbuhi MƏMMƏDOV**

**Çapa imzalanmışdır 00:00**